*Azərbaycan Ordusu, Azərbaycan əsgəri bilməlidir ki, ölkəmizin ərazi bütövlüyü nəyin bahasına olursa-olsun, bərpa edilməlidir.*

**Heydər ƏLİYEV**




# AZƏRBAYCAN ORDUSU

AZƏRBAYCAN RESPUBLİKASI MÜDAFİƏ NAZİRLİYİNİN ORQANI

Qəzet 1992-ci il fevralın 11-dən çıxır 17 fevral 2016-cı il № 12 (2027) Qiyməti 25 qəpik


## Prezident İlham Əliyev Münxen Təhlükəsizlik Konfransı çərçivəsində iqlim və enerji təhlükəsizliyi mövzusunda panel-müzakirədə iştirak edib

***Fevralın 13-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Münxen Təhlükəsizlik Konfransı çərçivəsində "İqlim və enerji təhlükəsizliyi. İstiləşmə hələ də davam edirmi?" mövzusunda keçirilən panel-müzakirədə iştirak edib. Panel-müzakirənin aparıcısı Melinda Kreyn tədbirdə sözü dövlətimizin başçısına verdi.***



*- Cənab Prezident, sualıma Sizdən başlamaq istəyirəm. Azərbaycanda səhralaşma, daşqınlar, quraqlıq müşahidə edilir. Uzun müddətdir sərhədyanı münaqişəniz olan Ermənistan ilə əhəmiyyətli su resurslarını paylaşırsınız. Sizcə, iqlim təzyiqi Qafqazda geosiyasi gərginlikləri daha da kəskinləşdirəcəkmi?*

**Prezident İlham ƏLİYEV:** Əlbəttə ki, bu, hamımızın üzləşdiyi bir təhlükədir. Azərbaycana gəlincə, müstəqilliyimizin son 25 ilində atmosferə qaz tullantılarını azalda bilmişik. 1990-cı ildə tullantılar 70 milyon tondan çox təşkil edirdi, indi isə təqribən 50 milyon tondan çoxdur və bu, iqtisadiyyatımızın həmin müddətdə kəskin şəkildə artmasına baxmayaraq, baş verirdi.

Lakin, əlbəttə, çağırışlar və təhlükələr mövcuddur. Bizim üçün əsas təhlükə ondan ibarətdir ki, bizi su ilə təchiz edən əsas çaylarımız mənbəyini qonşu ölkələrdən götürür və xüsusilə Ermənistanda Araz çayının çox ciddi çirklənməsi müşahidə olunur. Bu da bizim hamımız üçün təhlükədir. Çayın çirklənməsinin dayandırılması ilə bağlı etdiyimiz bütün müraciətlərimizə baxmayaraq, əfsuslar olsun ki, Ermənistan bu siyasəti davam etdirir. Sizin də qeyd etdiyiniz kimi, biz 20 ildən artıqdır ki, təcavüz və işğaldan əziyyət çəkirik. Ərazilərimizin 20 faizi işğal altındadır. İnsanların əziyyət çəkməsindən savayı, təbiətimiz də əziyyət çəkir. Çünki hər hansı beynəlxalq nəzarət altında olmayan bu ərazilərdə çoxlu qeyri-qanuni fəaliyyətlər, xüsusilə meşələrin qırılması baş verir. Çünki bu ərazilər öz qədim ağac və meşələri ilə çox məşhurdur. İndi isə bu meşələr kommersiya məqsədləri üçün kəsilir.

Biz ağac əkirik. Biz hər il milyonlarla ağac əkirik. Biz qazlaşdırma siyasətini davam etdiririk. Bu gün biz elektrik enerjisinin generasiyası üçün əsasən sudan və qazdan istifadə edirik. Baxmayaraq ki, Azərbaycanın Kioto protokoluna əsasən heç bir öhdəliyi yoxdur, bu, bizim bu işə töhfəmizdir. Biz bu məsələyə çox sadiqik və müstəqillik illərində fəaliyyətimiz də bu prosesdə etibarlı tərəfdaş olduğumuzu nümayiş etdirir.

***Aparıcı:*** *Sualımı qısaca davam etdirmək istəyirəm. Vacib sayılan Kür-Araz hövzəsində su çatışmazlığı perspektivi ilə üzləşmə Azərbaycanı Ermənistan ilə bu resursların müştərək paylaşmasının idarə olunmasında daha da sıx əməkdaşlığa vadar edirmi?*

**Prezident İlham ƏLİYEV:** Əlbəttə, biz işğalı davam etdirən ölkə ilə daha da böyük anlaşmaya malik olmaq istəyirik. Sizə deyə bilərəm ki, bu yaxınlarda - yanvar ayında Avropa Şurasının Parlament Assambleyası qonşu regionlara suyun təchizatında problem törətməsinə görə Ermənistanı pisləyən qətnamə qəbul etmişdir. Parlament Assambleyasında əksəriyyət tərəfindən qəbul edilmiş bu qətnamədə əziyyət çəkən insanlara iztirab verməyə son qoymağa çağırış edilir. Əfsuslar ki, onlar Dağlıq Qarabağ Azərbaycanın hələ de-fakto hissəsi olanda tikilmiş su anbarından mülki əhaliyə problemlər törətmək üçün istifadə edirlər.

Əlbəttə ki, Kür və Araz çaylarından götürülən su bizim üçün çox vacibdir. Buna baxmayaraq, biz dağlarımızdan Bakı şəhərinə su nəql edən boru kəməri tikmişik və regiondan nisbətən az asılıyıq. Lakin yenə də bu, bizim üçün ciddi problemdir. Buna baxmayaraq, bizim Xəzər dənizi kimi böyük su hövzəmiz var. Biz dəniz suyunun irriqasiya məqsədləri və sonradan içməli su kimi istifadə edilməsi üçün onun duzsuzlaşdırılması prosesinə başlamışıq.

**Ermənistanın Xarici İşlər Nazirliyinin əməkdaşı:** *Mən Ermənistan Xarici İşlər Nazirliyindənəm və sualım Prezident Əliyevədir. Cənab Prezident, Siz Ermənistanı suyun çirkləndirilməsinə və digər ciddi siyasi məsələlərə görə günahlandırırsınız və bununla bağlı bizim Ermənistanda fərqli mövqeyimiz var. Azərbaycanda baş verən hər bir mənfi hala görə Azərbaycanın Ermənistanı günahlandırmasını necə izah edə bilərsiniz? Məsələn, beynəlxalq ictimaiyyət Azərbaycanı insan hüquqları sahəsində vəziyyətə görə tənqid etdikdə Azərbaycan Ermənistanı günahlandırır. Avropa Şurasının Parlament Assambleyası və Avropa Parlamenti Azərbaycanla bağlı ciddi qətnamələr qəbul etdikdə Azərbaycan yenə də Ermənistanı və erməni lobbisini tənqid edir. Hətta Azərbaycanda neft istehsalı azaldıqda "British Petroleum" şirkəti Ermənistanla əlbir olmasına görə tənqid edilmişdi. Cənab Prezident, bütün bu çətin suallara bir cavabın verilməsi daha asan deyilmi?*

**Prezident İlham ƏLİYEV:** Əvvəla, qeyd etmək istəyirəm ki, sizin sualınızda ifadə olunan fikirlər tamamilə səhvdir. Biz Ermənistanı sizin qeyd etdiyiniz səbəblər üzündən günahlandırmırıq. Əvvəla, təkcə Azərbaycan deyil, Ermənistan da Avropa Şurası, Avropa Parlamenti tərəfindən insan hüquqlarının kobud şəkildə pozulmasına, prezident və parlament seçkilərinin saxtalaşdırılmasına və hökumətinizin törətdiyi bir çox digər işlərə görə tənqid edilir.

Biz Ermənistanı işğala görə günahlandırırıq və bunu təkcə biz etmirik. Bunu ən ali beynəlxalq qurum olan BMT Təhlükəsizlik Şurası da edir. BMT Təhlükəsizlik Şurası erməni qüvvələrinin işğal olunmuş ərazilərdən dərhal və qeyd-şərtsiz çıxarılmasını tələb edən dörd qətnamə qəbul etmişdir. Biz Ermənistan xalqını yox, Ermənistan hökumətini yalnız azərbaycanlı olduqlarına görə günahsız insanların erməni vandalları tərəfindən qətlə yetirildiyi Xocalı soyqırımına görə günahlandırırıq və bu soyqırımı 10-dan artıq ölkə tərəfindən tanınır. Biz Ermənistanı öz doğma torpaqlarında qaçqına çevrilmiş bir milyon qaçqın və məcburi köçkünlərimizin iztirabına görə günahlandırırıq. Onların 40 mini Dağlıq Qarabağdandır, 750 mini Azərbaycanın digər işğal olunmuş rayonlarındandır, 200 mini isə Ermənistandan qovulmuşdur və etnik təmizləməyə məruz qalmışdır.

Bütün bunlar sizin işğalınızın nəticəsidir. Bu, sizin qonşu ölkəyə qarşı yürütdüyünüz siyasətin nəticəsidir və işğala son qoyulmalıdır. Regionda sülhə nail olmaq üçün birinci şərt Azərbaycan torpaqlarının işğaldan azad edilməsidir.

***Aparıcı:*** *Prezident Əliyev, icazə verin müzakirəmizin əvvəlində verdiyim sualın digər tərəfini Sizə ünvanlayım. Bəziləri hesab edir ki, su sahəsində konkret əməkdaşlıq üzərində işin aparılması tərəflərin bir-birinə qarşı etimadını artıra bilər və bəzi digər məsələlərdə daha böyük əməkdaşlığın aparılması istiqamətində atılmış bir addım ola bilər. Sizcə, bu, doğrudurmu?*

**Prezident İlham ƏLİYEV:** Əlbəttə ki, bir aydan da az müddət öncə Strasburqda Avropa Şurası Parlament Assambleyası tərəfindən qəbul edilən qətnamədə bu məsələ üzrə çox vacib elementə diqqət yönəldilir və xüsusilə su resurslarının idarə edilməsi ilə bağlı törətdiyi problemlərə görə Ermənistanın üzərinə məsuliyyət qoyulur. Buna görə Ermənistan və Azərbaycan arasında əməkdaşlığın qurulması üçün torpaqların işğaldan azad edilməsi prosesinə başlanılmalıdır. Etimadın artırılması üçün ən yaxşı yol torpaqların işğaldan azad olunmasına başlamaqdır. Çünki təkcə tarixən əzəli Azərbaycan torpağı olan Dağlıq Qarabağ yox, 7 ətraf rayon da tamamilə məhv edilib. İşğal 20 ildən artıqdır ki, davam edir.

Ermənistan status-kvonun dəyişilməz olaraq qalmasını istəyir. Biz isə status-kvonu dəyişmək istəyirik. Beləliklə, birinci addım torpaqların işğaldan azad edilməsidir, sonra isə biz əməkdaşlığa başlayacağıq.

**AZƏRTAC-ın materialları əsasında**



"Etimadı nümunəvi xidmətimlə doğruldacağam"

2-ci səhifədə



"Yol verin, veteran gəlir"

3-cü səhifədə



"Vətənə sədaqətlə xidmət edəcəyik"

4-5-ci səhifədə



"Azərbaycan Yaxın Şərqdə tolerantlıq vadisidir"

7-ci səhifədə

AZƏRBAYCAN ORDUSU

# Silahlı Qüvvələrin Baş Qərargah rəisi NATO-nun baş katibinin xüsusi nümayəndəsi ilə görüşüb



***Fevralın 16-da Azərbaycan Respublikası Müdafiə nazirinin birinci müavini - Silahlı Qüvvələrin Baş Qərargah rəisi, general-polkovnik Nəcməddin Sadıkov ölkəmizdə səfərdə olan NATO-nun baş katibinin Cənubi Qafqaz və Mərkəzi Asiya üzrə xüsusi nümayəndəsi Ceyms Appaturayın rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşüb.***

Azərbaycanın NATO-nun tərəfdaşı olduğunu vurğulayan Baş Qərargah rəisi xüsusi qeyd edib ki, Alyansın Cənubi Qafqazda təhlükəsizliyə dair tutduğu prinsipial və davamlı mövqeyi Avratlantik təhlükəsizliyin bölünməzliyi məsələsini gücləndirir, regional sülh və sabitlik üçün mühüm əhəmiyyət kəsb edir. Biz, Zirvə toplantılarında Alyansın Azərbaycanın ərazi bütövlüyünə və suverenliyinə bir daha göstərdiyi siyasi dəstəyi yüksək qiymətləndiririk.

Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinə toxunan general-polkovnik N.Sadıkov vurğulayıb ki, Ermənistanın Azərbaycana qarşı hərbi təcavüzü nəinki regionda, eləcə də bütün dünyada sülhə, sabitliyə və təhlükəsizliyə ciddi təhdiddir.

Azərbaycan ilə Alyans arasında əməkdaşlığın bundan sonra da inkişaf edəcəyinə ümidvar olduğunu deyən Baş Qərargah rəisi NATO-nun mənzil-qərargahına son səfərini və keçirdiyi görüşləri də məmnunluqla xatırlayıb.

NATO-Azərbaycan əlaqələrini yüksək qiymətləndirən C.Appaturay uğurlu əməkdaşlığa, xüsusilə sülhməramlılarımızın Əfqanıstanda keçirilən əməliyyatlar çərçivəsində beynəlxalq təhlükəsizliyə verdiyi töhfəyə görə Azərbaycan tərəfinə minnətdarlığını bildirib.



Görüşdə Azərbaycan ilə NATO arasında mövcud proqramlar daxilində əməkdaşlıq məsələləri, həyata keçirilən layihələr, əlaqələrimizin hazırkı vəziyyəti və inkişaf perspektivləri barədə fikir mübadiləsi aparılıb.

Sonda cari ilin yanvarında Əfqanıstanda xidmətlərini bitirən Azərbaycan sülhməramlılarının bir qrupu ilə görüş keçirilib və xatirə şəkli çəkdirilib.

**Müdafiə Nazirliyi
Mətbuat Xidməti**

*Gənc zabitlərimiz*

# "Etimadı nümunəvi xidmətimlə doğruldacağam"

***Haramı düzünü müxtəlif yerlərdən bölüb keçən torpaq yollarla səngərlərə doğru gedirik. Yol yoldaşım mayor Eldəniz Gözəlov ərazini yaxşı tanıyır, yolların hər qarışına bələddir. Bir-birinə oxşayan dərələr də, təpələr də ona tanışdır. Yollar isə uzandıqca uzanır...***



Avtomobilin pəncərəsindən ətrafı seyr edirəm. Qışın oğlan çağı olsa da, çöllər yaşıl dona bürünüb. Çobanlar qoyun sürülərini yamaclara yayıb otarırlar. İri pəncəli itlər tənbəl-tənbəl sürünün yanında dolanıb ətraflı dinşəyirlər. Payızdan səpilən buğda cücərib torpaqdan baş qaldırıb. Əkin yerləri yaşıl dənizə bənzəyir. Bu səhnəni görəndə xatırladım ki, ötən il bu vaxtlar da Haramı düzündə olmuşam. Ötən ilkindən fərqli olaraq hava açıq və günəşli idi. Geniş səmanın ətəklərində seyrək buludlar görsənirdi.

- Əsgərlərimiz torpaqlarımızın keşiyində daim ayıq-sayıq dayanırlar, - deyə zabit Eldəniz Gözəlov söhbəti ilə yolu qısaltmağa çalışır. - Düşmən mövqeləri nəzarət altındadır. Ermənilərin bütün təxribat hərəkətlərinin qarşısı qətiyyətlə alınır. Qəsbkarların atəş nöqtələri tez bir zamanda dəqiq zərbələrlə susdurulur. Düşmən ordumuzun gücünü, qüdrətini hər addımda hiss edir. Xidmətdə ilk addımlarını atan gənc zabitlərin də uğurları bizi çox sevindirir. Bölük komandiri baş leytenant Nurlan Səmədov ilk gündən peşəkarlığı ilə uğur qazanır.

Qərara aldıq ki, yolumuzu baş leytenantın xidmət etdiyi mövqedən salıb onunla görüşək. Ömür və xidmət yolları ilə yaxından tanış olaq. Yollarımız getdikcə qısalır, ön mövqelərə yaxınlaşırıq. Qarşıdakı təpənin yan tərəfindən keçəndən sonra geniş çöllər qarşımızda kitab kimi açılır, yollar asta-asta vərəqlənir. Uzaqdan ön mövqelərimiz görsənir. Bizi bölüyün qarşısında baş leytenant Nurlan Səmədov və leytenant Rəşad Hüseynov qarşıladılar. İkisi də gənc zabit, ikisi də güləröz, ikisi də boy-buxunlu.

Baş leytenant Nurlan Səmədovun xidmət yolu ilə tanış olduq. Salyan rayonunda dünyaya göz açıb. Kiçik yaşlarından hərbi sahəyə maraq göstərib. Bu maraq da illər sonra onu ordu sıralarına gətirib çıxarıb. 2011-ci ildən zabit kimi ön xətdə xidmət edir, torpaqlarımızın keşiyində dayanır.

- Bir neçə kilometr məsafədə ərazini qorumaq bizə tapşırılıb, - deyir zabit. - Əsgərlərimizlə çiyin-çiyinə üzərimizə düşən tapşırıqların öhdəsindən bacarıqla gəlməyə çalışırıq. Şəxsi heyət torpaqlarımızın keşiyində ayıq-sayıq dayanıb. Hədəflərimizə tuş gələn düşmənləri bir göz qırpımında məhv edirik. Biz bütün cəhətlərdən qəsbkarlardan üstünük. Həm silah-sursat, həm də texnika baxımından. Xidmətdə fərqlənən əsgərlərdən Pirxan Mirzəyev, Rasim Məmmədov və Nurlan Mirzəyevin adlarını çəkmək istərdim.

"Komandanlıq həmişə xidmətimizi layiqincə qiymətləndirir. Bu günlərdə Tərtər rayonunda Azərbaycan gənclərinin birinci forumunun 20 illiyinə və Gənclər Gününə həsr olunmuş "Ordu gəncləri böyük qüvvədir" devizi ilə kütləvi gənclik və vətənpərvərlik bayramı keçirildi. Nümunəvi xidmət edən bir neçə hərbçi həmin mərasimə dəvət olunmuşdu. Sevinirdim ki, mən də o hərbçilərin biriyəm. "Heydər Əliyev parkı"nda keçirilən tədbir möhtəşəm oldu. Mərasimdə iştirak edən bir qrup hərbçini "Heydər Əliyev Mərkəzi"nə dəvət etdilər. Nümunəvi hərbçilər burada mükafatlandırıldı. "Hərbi xidmətdə fərqlənməyə görə" 3-cü dərəcəli medalı mənə Azərbaycan Respublikasının Müdafiə naziri general-polkovnik Zakir Həsənovun adından, nazir müavini, Şəxsi Heyət Baş İdarəsinin rəisi general-leytenant Kərim Vəliyev təqdim etdi", - deyir zabit.

- Medalı alarkən hansı hissləri keçirdin? - deyə zabitdən soruşdum.

- Təbiidir ki, o anda qürur hissləri keçirdim. Mənim üçün xoşbəxt bir an idi. Bu, komandanlığın mənim xidmətimə verdiyi layiqli qiymət idi. Tədbir başa çatandan sonra ilk olaraq zəng vurub medal aldığım barədə valideynlərimə, qardaşıma məlumat verdim. Mükafat aldığımı eşidəndə onlar da sevindilər. Xidmətimə layiqli qiymət verildiyinə görə komandanlığa dərin minnətdarlığımı bildirirəm. Mənə böyük etimad göstərilib, bu etimadı nümunəvi xidmətimlə doğruldacağam.

Bölük komandiri baş leytenant Nurlan Səmədovla söhbət zamanı öyrəndim ki, böyük qardaşı Ruslan da zabitdir. Artilleriyaçıdır, "N" hərbi hissəsində xidmət edir. Medal aldığına görə Nurlanı ilk təbrik edənlərdən biri də elə Ruslan olub.

Torpaqlarımızın keşiyində dayanan baş leytenant Nurlan Səmədovdan, onun məğrur əsgərlərindən xoş təəssüratlarla ayrıldıq. Bu cəsur hərbçiləri biz tez-tez xatırlayacağıq. Çünki yurdun keşiyində dayanan oğullar heç vaxt unudulmur, yaddan çıxmırlar.

**Mayor
Vahid MƏHƏRRƏMOV,
"Azərbaycan Ordusu"**

# Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatı

## Hərbi qulluqçumuz şəhid olub

Fevralın 12-də qoşunların təmas xəttində Ermənistan silahlı qüvvələri tərəfindən növbəti dəfə atəşkəs rejiminin pozulması nəticəsində hərbi qulluqçumuz kiçik çavuş Zeynalov Elmir Sərxan oğlu şəhid olub.

Müdafiə Nazirliyinin rəhbərliyi şəhidin yaxınlarına və əzizlərinə dərin hüznlə başsağlığı verir və səbr diləyir.

## Silahlı Qüvvələrimizin nümayəndələri beynəlxalq tədbirlərdə iştirak edir

Fevralın 15-dən 17-dək Surix şəhərində (İsveçrə) hərbi əməkdaşlıq konfransı, fevralın 15-dən 19-dək Ankara şəhərində (Türkiyə) terrorçuluğa qarşı mübarizə və Oberammerqau şəhərində (Almaniya) döyüş hazırlığı qiymətləndirmə kursları keçirilir.

Tədbirlərdə Azərbaycan Respublikası Silahlı Qüvvələrinin nümayəndələri də iştirak edirlər.

## Ermənistan silahlı birləşmələri atəşkəs rejimini pozub

***16 fevral 2016-cı il.***

Müdafiə Nazirliyi bildirir ki, erməni silahlı bölmələri cəbhənin müxtəlif istiqamətlərində sutka ərzində atəşkəs rejimini ümumilikdə 127 dəfə pozub.

Ermənistan Respublikası İcevan rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən Qazax rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərimiz atəşə tutulub.

Goranboy rayonunun Talış, Gülüstan, Tərtər rayonunun Göyarx, Yarımca, Çaylı, Ağdam rayonunun Şıxlar, Baş Qərvənd, Novruzlu, Cəvahirli, Kəngərli, Sarıcalı, Şuraabad, Nəmirli, Xocavənd rayonunun Kuropatkino, Füzuli rayonunun Horadiz, Qaraxanbəyli, Qorqan, Aşağı Seyidəhmədli, Cəbrayıl rayonunun Mehdili kəndləri yaxınlığında, həmçinin Göygöl, Goranboy, Xocavənd, Füzuli və Cəbrayıl rayonları ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən də Silahlı Qüvvələrimizin mövqeləri atəşə tutulub.

Azərbaycan Silahlı Qüvvələri əməliyyat şəraitini nəzərə alaraq, düşmənin atəş nöqtələrinə, mövqelərinə və səngərlərinə 127 dəfə atəş zərbəsi endirib.

# “Yol verin, veteran gəlir”

## Azərbaycan Qarabağ Müharibəsi Əlilləri, Veteranları və Şəhid Ailələri İctimai Birliyinin 15 illiyi qeyd olunub



***Erməni ordu birləşmələrinin torpaqlarımıza hərbi təcavüzü qəlbi Vətən sevgisi ilə döyünən insanları bir məqsəd, bir amal ətrafında birləşdirdi. Bu müqəddəs mübarizədə şəhidlərimiz də, yaralılarımız da oldu və nə qədər soydaşımız qəhrəmanlığı ilə tarixdə layiqli yer tutdu. Bu gün də müharibə veteranları cəmiyyətimizin ön sıralarında olmaqla ölkənin ictimai-siyasi həyatında önəmli rol oynayırlar.***

Fevralın 12-də Şəhriyar adına Bakı Mədəniyyət Mərkəzində Müdafiə Nazirliyinin təşkilatçılığı ilə Azərbaycan Qarabağ Müharibəsi Əlilləri, Veteranları və Şəhid Ailələri İctimai Birliyinin yaranmasının 15 illiyi təntənəli qeyd edilib. Yubiley tədbirində Müdafiə Nazirliyinin, Milli Məclisin, Dövlət və Qeyri-Hökumət Təşkilatlarının nümayəndələri, Qarabağ veteranları, əlillər və şəhid ailələrinin üzvləri iştirak ediblər. Tədbir Fəxri xiyabanda ulu öndər Heydər Əliyevin məzarı önünə əklilin qoyulması, Şəhidlər xiyabanında Vətənimizin azadlığı uğrunda canlarından keçən qəhrəman övladlarımızın qəbirlərinin və "Əbədi Məşəl" abidə-kompleksinin ziyarəti ilə başlanıb.

Tədbir Bakı Mədəniyyət Mərkəzinin foyesində QMƏVŞAİB-nin təsis etdiyi "Fədai" medalının təqdimetmə mərasimi ilə davam edib. Yubiley tədbirinin ssenari müəllifi və rejissoru, Müdafiə Nazirliyi Mənəvi-Psixoloji Hazırlıq və İctimaiyyətlə Əlaqələr İdarəsinin rəis müavini, əməkdar incəsənət xadimi polkovnik Abdulla Qurbani mərasimdə çıxış edərək bildirib ki, 2001-ci ildə ümummilli liderimiz Heydər Əliyev tərəfindən yaradılan bu ictimai birlik Prezident, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin yüksək diqqət və qayğısı nəticəsində 15 il ərzində böyük inkişaf yolu keçərək çox işlər görüb. "Fədai" medalına veteranların, əlillərin, şəhid ailələrinin üzvlərinin və fəal ictimaiyyət nümayəndələrinin layiq görülməsindən danışan polkovnik A.Qurbani tədbir iştirakçılarını yubiley günü münasibətilə təbrik edib.

Milli Məclisin əmək və sosial siyasət komitəsinin sədri Hadı Rəcəbli çıxış edərək ictimai birliyin 15 illik fəaliyyəti dövründə əhəmiyyətli işlərin görüldüyünü bildirib. "Qarabağ müharibəsi əlilləri, veteranları və şəhid ailələrinin problemləri dövlətimizin rəhbəri, Prezident İlham Əliyevin daim diqqətindədir. Onların sosial rifah şəraitinin yaxşılaşdırılması istiqamətində ciddi addımlar atılır. Göstərilən etimada cavab olaraq, bu ictimai qurumun tərkibində birləşən insanlar Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən siyasi kursu dərindən dəstəkləyir və ölkədə vətənpərvərlik tərbiyəsi işinə dəyərli töhfələr verirlər.

Bildirildi ki, "Fədai" medalı veteranlara, əlillərə və şəhidlərin ailə üzvlərinə verilməsilə yanaşı, eyni zamanda ictimaiyyət fəallarına da təqdim ediləcək. Bu medalla ilk olaraq Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev təltif olunub.

Sonra mərasim iştirakçıları Mədəniyyət ocağının geniş zalına toplaşaraq Azərbaycanın müstəqilliyi və torpaqlarımızın bütövlüyü uğrunda canlarından keçən şəhidlərimizin xatirəsini bir dəqiqəlik sükutla yad ediblər. Dövlət himni səsləndirilib.

Əməkdar incəsənət xadimi polkovnik Abdulla Qurbaninin və xalq artisti Pərvanə Qurbanovanın aparıcısı olduqları yubiley tədbirində səsləndirilən musiqili ədəbi bədii kompozisiyalar iştirakçılarda duyğulu məqamlar yaşadıb. Sanki savaş meydanı "Cəngi"nin sədaları altında igidlərin nərə çəkib döyüşə - düşmən üzərinə atılmasını gözləyir. Yaralı əsgər isə kompozisiyasının bir yerində "Bu dünyada ən müqəddəs bir anadı, bir Vətən", - deyir.

Sonra Azərbaycan Respublikasının Müdafiə naziri general-polkovnik Zakir Həsənovun təşkilatın yaranmasının 15 illiyi ilə əlaqədar ünvanladığı təbrik məktubunu yubiley iştirakçılarına çatdırmaq üçün söz Mənəvi-Psixoloji Hazırlıq və İctimaiyyətlə Əlaqələr İdarəsinin rəisi general-mayor Rasim Əliyevə verilib. İdarə rəisi mərasim iştirakçılarını Müdafiə Nazirliyinin rəhbərliyi adından salamlayaraq, hər kəsə ən xoş arzularını bildirib. Məktubda deyilir: "Hörmətli Mehdi müəllim! Siz Qarabağ müharibəsi əlilləri, veteranları və şəhid ailələrinin qanuni mənafelərini və hüquqlarını müdafiə edir, onların müasir həyat şəraitinə uyğunlaşmasına, sosial-iqtisadi mənəvi problemlərinin daha səmərəli həll olunmasına köməklik göstərir, xüsusilə gənclərin hərbi vətənpərvərlik tərbiyəsində səylərinizi əsirgəmirsiniz. Əmin olduğumu bildirirəm ki, göstərilən etimadı, diqqət və qayğını bundan sonra da əməli fəaliyyətinizlə doğruldacaqsınız. Hər birinizə möhkəm cansağlığı, uzun ömür, ailə səadəti və fəaliyyətinizdə uğurlar arzulayıram".

Sonra Azərbaycan Qarabağ Müharibəsi Əlilləri, Veteranları və Şəhid Ailələri İctimai Birliyinin sədri, Əfqanıstan və Qarabağ müharibələrinin iştirakçısı, Silahlı Qüvvələr veteranı, "Azərbaycan Bayrağı" ordenli ehtiyatda olan polkovnik Mehdi Mehdiyev "Yol verin, veteran gəlir" şeirinin sədaları altında səhnəyə dəvət olunur. O, rəhbəri olduğu təşkilatın 15 illik fəaliyyətindən bəhs edən statistik göstəricilərə əsaslanan məruzəsində qeyd edib ki, düz 15 il öncə bu zalda təşkilatımız təsis olunub. Xalqımızın sınanmış oğulları, Vətənini, xalqını sevən döyüşçülər təşkilatın ətrafında bir ailə kimi birləşərək cəmiyyətdə daim fəal mövqe tutublar. Bu gün də hamımız bir əsgər olaraq Ali Baş Komandanın ətrafında sıx birləşib "İrəli" komandasını gözləyirik.



Azərbaycan Respublikası Prezidenti Administrasiyası ictimai-siyasi məsələlər şöbəsi müdirinin müavini Tahir Süleymanov bu təşkilatın ölkədə ən önəmli ictimai təşkilatlardan biri olduğunu qeyd edib. O bildirib ki, ictimai birlik Azərbaycanın ictimai-siyasi həyatında xüsusi yeri və rolu ilə fərqlənir. Birliyin üzvlərinə təbriklərini çatdıran T.Süleymanov vurğulayıb ki, təşkilat yarandığı gündən həmişə müharibə iştirakçılarının, şəhid ailələrinin, veteranların, əlillərin yanında olub və hər sahədə onlara güclü dəstək verib.

Əmək və Əhalinin Sosial Müdafiəsi nazirinin müavini Natiq Məmmədov, Dövlət Statistika Komitəsinin sədri Tahir Budaqov, Respublika Veteranlar Təşkilatının sədr müavini, ehtiyatda olan polkovnik Cəlil Xəlilov, Əfqanıstan müharibəsi veteranları ictimai birliyinin sədri Məhəmməd Vəliyev də çıxışlarında birliyin üzvlərini təbrik edərək onların 15 il ərzində gördükləri işlərin əhəmiyyətindən danışıblar və tezliklə üçrəngli bayrağımızın işğal olunmuş ərazilərdə dalğalanacağına, qələbə müjdəli xəbərlərin eşidiləcəyinə əminliklərini vuğulayıblar.



Tədbir yenidən musiqi sədaları altında davam edib. Azərbaycanın xalq artisti Zümrüd Məmmədovanın ifasında "Yol verin, əsgər gəlir" mahnısı insan qəlbindəki Vətən sevgisini daha da coşdurur. Əməkdar artistlər Ramil Qasımovun "Tankçı qardaşım"ı döyüşçünü düşmən üzərinə hücuma səsləyir, Sevinc Sarıyevanın “Heyratı”sı bütün zala yayılır, Çingiz Mustafayevin "Ana, mən şəhid oldum, yerim gözəldir, sən ağlama, təki Vətən yaşasın" sızıltıları ürəkləri titrədir. Nizami Abdullayev "Şəhidlər" mahnısını şəhid olan döyüşçülərin ruhlarına xatirə olaraq oxuyur.

Silahlı Qüvvələrin Mahnı və Rəqs Ansamblının solistləri Leyla Qəhrəmanova, Vüsal Ağayev, Elçin Məmmədov, Ağabala Abdullayev, Günay Qasımovanın ifasındakı hərbi vətənpərvərlik mahnıları böyük ruh yüksəkliyi ilə qarşılanıb.

İctimai birliyin fəaliyyətini, cəbhə bölgəsində keçirilən görüşləri, Murovdağda hərbçilərimizin ziyarət olunmasını əks etdirən video süjetlər də maraqla izlənilib.

Yubiley tədbiri Qarabağ Müharibəsi Əlilləri, Veteranları və Şəhid Ailələri İctimai Birliyinin üzvləri tərəfindən Azərbaycan Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevə müraciətin qəbul edilməsi ilə başa çatıb.

**Lalə HÜSEYNOVA,**
**"Azərbaycan Ordusu",**
**fotolar**
**çavuş**
**Namiq PƏNAHOVUNDUR**

AZƏRBAYCAN ORDUSU

# “Vətənə sədaqətlə xidmət edəcəyik”

***Fevralın 14-də Müdafiə Nazirliyinin tabeliyində olan hərbi hissə və birləşmələrdə gənc əsgərlərin andiçmə mərasimi keçirilib. Əlahiddə Ümumqoşun Ordunun və birliklərin hərbi hissələrinin ərazilərində təşkil edilmiş mərasimlərdə hərbi rituala uyğun olaraq Döyüş bayrağı sıra meydanına gətirilib. Azərbaycan Respublikasının Dövlət himni oxunub və Müdafiə naziri general-polkovnik Zakir Həsənovun təbriki şəxsi heyətə çatdırılıb.***



Gənc əsgərlərin hərbi andiçmə mərasimi təkcə ordu sıralarında ilk addımlarını atan gənclərin həyatında ən yaddaqalan hadisə deyil. Eyni zamanda bütövlükdə ordunun, eləcə də övladlarını Vətənə əsgəri borcunu verməyə yola salmış valideynlər üçün unudulmaz olaylardandır. Həmin gün gənc əsgərlərin bayramında iştirak etmək üçün Azərbaycanın müxtəlif bölgələrindən valideynlər səhər ertədən hərbi hissələrə üz tutublar.

Budur, hərbi qulluqçular üçün hazırlıq komandası verilib. Polkovnik Allahverdi Hacıyev məruzə etdikdən sonra general-mayor Xaqani Cəbrayılov şəxsi heyəti andiçmə mərasimi münasibəti ilə təbrik edib. Hərbi hissənin vüqarla dalğalanan döyüş bayrağı meydana gətirilib və gənc əsgərlərin andiçmə mərasimi başlanıb.

Gənc əsgərlər ötən müddət ərzində hər şeydən öncə sıra hazırlığı ilə məşğul olublar. Bundan əlavə onlar hərbi qanunvericilik və nizamnamələrin tələbləri ilə tanış ediliblər, hüquq saatlarında hərbi xidmət əleyhinə cinayətlər və bu cinayətlərə görə qanunvericilikdə nəzərdə tutulmuş məsuliyyət barədə bilgi alıblar. Döyüş hazırlığı dərslərində gənc əsgərlərə əsgəri peşə ilə bağlı lazımi bilgilər verilib, ictimai-siyasi hazırlıq dərslərində isə ölkəmizdə və regionumuzda baş verən hadisələr barədə məlumatlandırılıblar.

- Hərbi hissəyə qəbul edildikləri andan gənc əsgərlərlə lazımi iş aparmışıq və onları hərbi xidmətə hazırlamağa çalışmışıq, - zabit Firdovsi Məmmədov deyir. - Onlarla fərdi söhbətlər aparılıb, orta məktəb partasından ayrılmış oğlanların hansı duyğular keçirdiyi, onların ailə vəziyyəti və problemləri zabitlər tərəfindən öyrənilib. Bu, gənc əsgərlərin hər birinin fərdi xüsusiyyətlərinin, ovqat və istəklərinin xidmət prosesində nəzərə alınması üçün zəruridir.

Hər bir gənc hərbi andı qəbul etməklə özünün ən nəcib hisslərini, müstəqil Vətənimizə sonsuz məhəbbətini, düşmənə nifrətini ifadə etmiş olur. Hərbi and eyni zamanda hərbçilərin üzərinə məsul vəzifələr qoyur, bütün çətinliklərə sinə gərməkdə onlara yardımçı olur, mənəvi ruh verir.

Andiçmə bitdikdən sonra Azərbaycan Respublikasının Dövlət himni oxunub. Mərasim iştirakçıları çıxış edərək gənc əsgərlərə ürək sözlərini bildiriblər. Öncə çıxış edən general-mayor Xaqani Cəbrayılov kollektivin gənc üzvlərini salamlayaraq Azərbaycan Respublikasının Müdafiə naziri general-polkovnik Zakir Həsənovun təbriklərini çatdırıb, onlara qarşıdakı xidmət müddətində uğurlar arzulayıb.

Müharibənin gedişində formalaşmış hərbi hissənin keçdiyi şərəfli döyüş yoluna toxunan zabit Allahverdi Hacıyev Sədərək, Şuşa, Ağdam, Füzuli, Tərtər istiqamətində aparılmış uğurlu əməliyyatları xatırladıb və bildirib ki, şərəfli əsgəri ənənələrin qorunub saxlandığı hərbi hissənin zabit və əsgərləri Azərbaycan xalqına, Prezidentinə sədaqətlə xidmət edir, dövlətçiliyimizin qorunmasına layiqli töhfələrini verirlər.



Gənc əsgərləri andiçmə münasibəti ilə təbrik edən polkovnik çıxışını bu sözlərlə yekunlaşdırıb: "Ümidvaram ki, siz Vətən, xalq, dövlət qarşısında xidməti borcunuzu şərəflə yerinə yetirəcək, Azərbaycanın dövlət müstəqilliyinin, ərazi bütövlüyünün, azadlığının qorunması və işğal olunmuş torpaqların azad edilməsi uğrunda mübarizədə Silahlı Qüvvələrimizin Ali Baş Komandanı İlham Əliyevin hər bir əmrinə hazır olacaqsınız".

Əsgər atası Əlifağa Əsədov gənc əsgərlərə öyüd və nəsihətini çatdırıb, Vətənə xidmət etməyin hər kəs üçün şərəfli olduğunu söyləyib və onlara xidmət dövründə uğurlar arzulayıb.

Təntənəli surətdə Hərbi andı qəbul etməyin hər bir döyüşçünün həyatında unudulmaz məqam olduğunu qeyd edən gənc əsgərlər bildiriblər ki, hərbi andı qəbul etməklə onlar üzərlərinə böyük vəzifə götürüblər və bu vəzifəni ləyaqətlə yerinə yetirəcəklər.

Andiçmə mərasiminin yaddaqalan məqamlarından biri gənc əsgərlər bölməsinin nümunəvi çıxışı olub. Onların qısa müddətdə hazırladıqları döyüş idman növü və atəş hazırlığıyla bağlı nömrələri valideyn və qonaqlar hərarətlə qarşılayıblar.

Övladlarının bayramına gəlmiş valideynlər üçün gənc əsgərlərin tribuna qarşısından təntənəli keçidi ən maraqlı və unudulmaz məqamlardan olub. Məğrur yerişli, şux duruşlu Azərbaycan əsgərləri, həmçinin hərbi hissənin əsgəri marşını hərbi orkestrin müşayiətilə ifa ediblər.

Doğrudan da, dünənə kimi yeniyetmə hesab olunan oğullar hərbi xidmətə qədəm qoyduqları ilk günlərdən dəyişməyə başlayıblar. Və bu dəyişiklik təkcə onların geyimlərini əhatə etmir. Ordu sıralarında əsgərlərin yaşam tərzi də başqalaşır. Əbəs yerə ordunu kişilik məktəbi adlandırmırlar ki!

* * *

Səhər saatlarında "N" hərbi hissəsinin qarşısında canlanma vardı. Azərbaycanın hər tərəfindən buraya insanlar toplanıb. Kimisi oğlu, kimisi nəvəsi, kimisi də qardaşı üçün burdaydı. Ən əsası hər kəsin bir məqsədi vardı: gənc əsgərlərin andiçmə mərasimində iştirak etmək.

Təyin olunmuş saatda mərasim başladı. Əvvəlcə ümummilli lider Heydər Əliyevin abidəsi önünə gül dəstələri qoyulub və şəhidlərimizin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Hərbi orkestrin ifası ilə Döyüş bayrağı sıra meydanına gətirildikdən sonra andiçmə mərasimi açıq elan edilib.

Gənc əsgərlər sıra meydanında yerləşdirilən silahların ətrafına nizami addımlarla yaxınlaşaraq, bir əli silahda, bir əli isə əsgər yoldaşında Vətənə sədaqət andı içiblər.

Polkovnik Qurban Qurbanov qonaqları salamlayaraq əsgərləri əlamətdar gün münasibətilə təbrik edib, onlara xoş arzularını çatdırıb:

"Əziz əsgərlər! Bu gün sizlərin həyatında ən əlamətdar günlərdən biridir. Hamınız Azərbaycan Silahlı Qüvvələri sıralarına daxil olaraq Vətənimiz Azərbaycana və onun xalqına sadiq olacağınıza and içdiniz. Hərbi and Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hər bir əsgər və zabiti üçün Vətən qarşısında dönməz sədaqət ifadəsidir".

Sumqayıt şəhər İcra Hakimiyyəti başçısının birinci müavini Faiq Kərimov və polkovnik Elşad Əbilov çıxışları zamanı əsgərlərə möhkəm dəyanət və qələbə arzulayıblar. Qeyd ediblər ki, hərbi xidmət keçmək Azərbaycan oğullarının şərəf borcudur. Vətənimiz Azərbaycanın suverenliyinin və ərazi bütövlüyünün müdafiəsinə hər an hazır olmalıyıq. Hərbi andın mahiyyəti də məhz bundan ibarətdir.

Valideynlər adından çıxış edən Vahid Tağıyev əsgərlərin nümunəvi xidmət keçməsi üçün hərtərəfli şərait yaradıldığı üçün Azərbaycan Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevə və Müdafiə naziri general-polkovnik Zakir Həsənova minnətdarlığını çatdırıb.

"Siz əsgərlərə isə tək bir arzum var: Qarabağ torpaqlarına qələbə bayrağını sancanlardan olasınız", - deyə valideyn çıxışını bitirib.

Mərasimdə kəşfiyyatçı əsgərlərin nümunəvi çıxışları maraqla izlənilib. Həmçinin Sumqayıt şəhər 6 nömrəli tam orta məktəb şagirdlərinin ifasında vətənpərvərlik mövzusunda şeirlər səsləndirilib.

Tədbir şəxsi heyətin tribuna önündən təntənəli keçidi ilə başa çatıb.

* * *

Hava hücumundan müdafiə təyinatlı "N" hərbi hissəsində keçirilən andiçmə mərasimi də gənc əsgərlərin və onların doğmalarının yaddaşında şirin xatirəyə çevrilib.

Ənənəvi olaraq hərbi andiçmə mərasimi Dövlət himnimizin ifa edilməsi və üçrəngli bayrağımızın meydana gətirilməsi ilə başlanıb. Sonra polkovnik-leytenant İkram Səfərov çıxış edərək gənc əsgərləri, valideynləri, həmçinin hərbi hissənin şəxsi heyətini və tədbirə qonaq gəlmiş ictimaiyyət nümayəndələrini əlamətdar hadisə münasibətilə təbrik edib. Zabit öz çıxışında andiçmə mərasiminin hər bir azərbaycanlı gəncin həyatında unudulmaz hadisə olduğunu bildirib. Qeyd edib ki, hərbi qulluqçuların üzərinə düşən vəzifə müqəddəsdir. "Doğma anamız qədər əziz bildiyimiz Vətəni qorumaq hər birimizin əsas vəzifəsidir, çünki Vətən, doğrudan da, bizi öz qoynunda böyüdüb boya-başa çatdıran ülvi bir varlıqdır. Bu gün Azərbaycan ərazisinin 20 faizi ermənilərin işğalı altndadır. Döyüşlər zamanı nə qədər günahsız soydaşımız öldürülüb, təbii sərvətlərimiz, milli-mədəni dəyərlərimiz talan edilib. Siz gənclər də doğma ordumuzun sıralarında qəhrəmanlıq dərsi keçərək mətin döyüşçülər kimi yetişəcəksiniz və tezliklə düşmənə layiqli cavab verməyə hazır olacaqsınız. Sırada dayanan bütün əsgərlərimiz Ali Baş Komandanın bir əmri ilə savaşa atılmağa hər an hazırdırlar".

Müdafiə nazirinin və Hərbi Hava Qüvvələrinin komandanlığı adından gənc əsgərləri təbrik edən polkovnik-leytenant İ.Səfərov çıxışının sonunda əmin olduğunu bildirib ki, tabeliyində olan şəxsi heyət daim döyüş və mənəvi-psixoloji hazırlığını artırmaqla xalqımızın və dövlətimizin etimadını doğrultmağa hazır olacaqdır.



Sonra gənc əsgərlər adından Bakının Suraxanı rayonundan hərbi xidmətə çağırılmış Vüsal Ağayev çıxış edib. O, silahdaşları adından söz verib ki, komandirlərin əmrlərini vaxtında yerinə yetirərək, Vətənə sədaqətlə xidmət edəcəklər.

Valideynlər və ictimaiyyət nümayəndələrindən Mingəçevir şəhər təhsil şöbəsinin işçisi Qurban Vahidov, Qarabağ müharibəsi əlillərindən Arif Hüseynov, valideyn Rəhbər Məmmədov və başqaları çıxış edərək ürək sözlərini və arzularını bildiriblər.

Andiçmə marisiminin iştirakçıları əsgər yataqxanasında, tibb məntəqəsində və digər məişət otaqlarında yaradılmış şəraitlə yaxından tanış olublar.

Tədbir Mingəçevir şəhər Mədəniyyət Evi kollektivinin əsgərlər üçün hazırladığı maraqlı konsert proqramı ilə başa çatıb.

**(Ardı 5-ci səhifədə)**

# "Vətənə sədaqətlə xidmət edəcəyik"

(Əvvəli 4-cü səhifədə)

Əlahiddə Ümumqoşun Orduda gənc əsgərlərin hərbi andiçmə mərasimi keçirilib.

İlk olaraq gənc əsgərlərin andiçmə mərasiminə hazırlıqları ilə bağlı məruzə edilib. Sonra hərbi hissənin Döyüş bayrağı təntənə ilə sıra meydanına gətirilib. Azərbaycan Respublikasının Dövlət himni səsləndirildikdən sonra hərbi andiçmə mərasimi açıq elan edilib.



Hərbi andı qəbul edən əsgərlər Azərbaycan Respublikasının mənafeyini, onun suverenliyini, ərazi bütövlüyünü, müstəqilliyini qanları və canları bahasına qoruyacaqlarına and içiblər.

Təntənəli tədbirdən sonra mənimlə fikirlərini bölüşənlər də oldu. Hələ hərbi xidmətə yenicə başlasalar da, nümunəvi əsgər kimi komandirlərinin və yoldaşlarının hörmətini qazanan İsmayıl Əsgərov, Naim Kərəm, Yalçın Nəzərov, Məhəmməd Nəzərov, Xəzər Məhərrəmov, Azad Zülfiqarov və digərlərinin sevincləri gözlərindən oxunurdu. Onların fikirləri ilə tanış olan zaman bir vətəndaş kimi çox qürurlandım. Çünki əsgərlərimiz Vətənə xidmətin təkcə əsgərliklə kifayətlənmədiyini, hər bir gəncin hansı ixtisas və vəzifəyə yiyələnməsindən asılı olmayaraq hər zaman Vətənin və xalqın xoşbəxt gələcəyi naminə çalışmalı olduğunu nəzərə çatdırıblar.

Zabitlərimizlə həmsöhbət olanda bildiriblər ki, onlar gənclərimizi əsl döyüşçü, yenilməz Vətən müdafiəçisi kimi yetişdirirlər. Zabitlərdən Cavanşir Hüseynov, Əflatun Ağayev, Rəhib Rzayev, Elvin Əliyev, Şakir İsayev, Samir Aslanov, Dəyanət Abbasov və digərləri şərəfli xidmətlərindən söz açdılar.

* * *

Xəzər elə sakitdi ki. Coşmur, kükrəmir. Dalğaları arxayınlıqla sahilə sığal çəkir...

Xəzər Şuşanın, Laçının, Kəlbəcərin, Ağdamın, Füzulinin, Cəbrayılın, Qubadlının, Zəngilanın işğalından xəbərsizdimi? Yox, işğalın sıxıntısını neçə illərdi o da çəkir. 15-20 addım aralıda duruşundan, baxışından qürurlandığı oğulların qətiyyətini görür və inanır ki, bu oğulların timsalında ordumuz torpaqlarımızı işğaldan azad edəcək. Ona görə belə sakitdi Xəzər...

Bir qədər aralıda baxışları gənc matroslardan üzülməyən yaşlı bir nənə çəkir diqqətimi. Öyrənirəm ki, Səməyə Həsənovadı, Zaqataladan gəlib. Gənc matrosların sırasında nəvəsini tanımağa çalışır. Hələ ki, tanıya bilmir. Bir azdan o nəvəsinin, nəvəsi onun ağuşuna sığınacaq.

Mərasim başlayır...

Müasir Azərbaycanın dövlətçilik memarı olan Heydər Əliyevin və ərazi bütövlüyümüz uğrunda şəhid olanların ruhu bir dəqiqəlik sükutla yad edilir. Azərbaycanın Dövlət himni and içəcək kursantları da, zabitləri də, valideynləri də duyğulandırır. Gözucu Xəzərə baxıram. Bir az əvvəlki Xəzər deyil elə bil. Görkəmi göz doydurur Xəzərin. Bu sevinci o da duyur - düşünürəm...

2-ci dərəcəli kapitan Adil İsayev çıxışında Silahlı Qüvvələrimizdə aparılan islahatlardan, onların nəticələrindən, dəniz sərhədlərimizin keşiyində dayanan Hərbi Dəniz Qüvvələrinin inkişafından, şəxsi heyətinin döyüş və mənəvi-psixoloji hazırlığının səviyyəsindən danışaraq qeyd edib ki, hərbi qulluqçularımız Ali Baş Komandanın, Müdafiə nazirinin əmr və göstərişlərini yerinə yetirməyə hazırdır. "Bu gün hərbi and içən kursantların da nümunəvi xidmət edəcəyinə inanıram", - deyib.



Hərbi and içən matroslar adından çıxış edən Cavidan Məhərrəmli Vətənə sədaqət andını nəinki hərbi xidmət müddətində, tərxis edildikdən sonra da unutmayacaqlarını, torpaqlarımızın işğaldan azad edilməsində Ali Baş Komandanın əmrinə müntəzir olacaqlarını bildirib. Komandirlərini və valideynləri əmin edib ki, hər biri Hərbi Nizamnamələrin tələblərinə ciddi əməl edəcək, zabitlərin əmr və göstərişlərini sözsüz yerinə yetirəcəkdir.

Valideynlər adından çıxış edən Asya Güləliyeva oğlunun hərbi andiçmə mərasiminin həyatında əlamətdar hadisə kimi yadda qalacağını, gənc matrosların Vətənə sədaqətlə xidmət edəcəyinə əmin olduğunu bildirib...

Birinci dərəcəli kapitan Saleh Kələntərov hərbi and içən matrosları və onların valideynlərini təbrik edib.

Şəxsi heyətin nizami keçidi valideynlərə könül xoşluğu verib...

Mərasim başa çatır...

Səkkiz yaşlı Əvəz qardaşı Elçinin əllərindən yapışıb. Nəsə deyir. Davamlı baxışları qardaşının üzündən üzülmür. Elçin qardaşını köksünə sıxır. Bu şirin görüşü görüncə Səməyə nənə pıçıldayır: "Allah qorusun, ay bala!". Əvəzin baxışları matrosların sırasından üzülmür. Nə düşünür görəsən? 8-10 il sonranımı?..

Analarla matrosların görüşü mənə bir həqiqəti xatırladır: Ali Baş Komandanın əmri ilə, indi hərbi and içən matroslar da daxil olmaqla, ordumuz torpaqlarımızı işğaldan azad edəcək. Onda işğaldan azad edildəndə 24 ilin sıxılcımından qurtaranlar ata yurdunun daş-divarını bundan da hərarətlə bağrına basacaq.

* * *

Hərbi hissənin ərazisi bayramsayağı bəzədilib. Sıra meydanında böyük canlanma var. Bu gün xidmətdə ilk addımlarını atan gənc əsgərlər hərbi andı qəbul edəcəklər. Övladlarının əlamətdar günündə iştirak etmək üçün valideynlər də hərbi hissəyə gəliblər. Rastlaşdığım insanların hamısının üz-gözündən sevinc yağır...

Gənc əsgərlərin andiçmə mərasimi rəsmi rituallarn yerinə yetirilməsi ilə başlandı. Şəxsi heyətin əlamətdar gün münasibəti ilə sıra meydanında düzüldüyü barədə polkovnik-leytenant Nəsrəddin İsgəndərova məlumat verildi. O, nizami addımlarla sıranın qarşısına gəlib şəxsi heyətlə salamlaşdı. Gənc əsgərləri əlamətdar gün münasibəti ilə təbrik edib, onlara gələcək xidmətlərində uğurlar arzulayıb.

Şəxsi heyət Azərbaycan Respulikasının Dövlət himnini ifa edib. Hərbi hissənin Döyüş bayrağı təntənəli surətdə meydana gətirilib. Komandirin əmri ilə gənc əsgərlər hərbi andı qəbul etməyə başlayıblar. Sabahımızın əsgərlərinin səsi dalğa-dalğa ətrafa yayılırdı. Onların gurultulu səsini eşitdikcə valideynlərin də, komandirlərin də üzü gülürdü. Hərbi andı qəbul edən əsgərlərin üzgözündən bəxtəvərlik və xoşbəxtlik yağırdı.



Anlar, dəqiqələr ötüb keçir. Gənc əsgərlərin hərbi andı qəbul etmələri barədə hərbi hissə komandirinə məlumat verilir. Sonra çıxışlar başlanır... Əsgər atası Şaməddin Məmmədov, polkovnik İslam Gəncəliyev, mayor Hüseyn Həsənov və başqaları çıxış edərək gənc əsgərlərə xoş arzularını bildiriblər.

Gənc əsgərlər adından çıxış edən Vüsal Heydərov xidməti vəzifələrinə məsuliyyətlə yanaşacaqlarını, hərbi texnikanın və silahların sirlərinə dərindən yiyələnəcəklərini, torpaqlarımızı göz bəbəkləri kimi qoruyacaqlarını bildirib.

Mərasim şəxsi heyətin təntənəli marşı ilə başa çatıb.

* * *

...Havanın soyuq, küləkli olmasına baxmayaraq valideynlərin ürəklərinin istisi sanki havanın hərarətini dəyişirdi. Əzəmətli sıra meydanında əsgərlər son məşqlərini edir, valideynlərin üzlərindən sevinc, fərəh hissi aydın sezilirdi. Axı bu gün boy-buxununa baxıb qürur duyduqları övladları Vətənimizin müdafiəsində duracaq, müqəddəs borclarını şərəflə yerinə yetirəcəklər hərbi and içəcəklər.

"Farağat, diqqət mərkəzə!" - komandası bizi adi, gündəlik həyatdan tam fərqli bir məkanın qaydalarına riayət etməyə çağırır. Polkovnik-leytenant Ədalət Hacıyev hərbi hissə komandiri polkovnik Qədir Nəsibova gənc əsgərlərin andiçmə mərasiminə hazır olmaları barədə məruzə edib. Müstəqilliyimizin rəmzi, üzərində şəhidlərimizin qanı olan üçrəngli Dövlət bayrağımız meydana gətirilib. Hərbi hissənin şəxsi heyətinin, valideynlərin, qonaqların, ümumiyyətlə, hamının nəzəri bir nöqtədə - əzəmətli bayrağımızda birləşib. Bayaqdan bütün diqqətini toplayaraq oğlunu əsgərlərin arasında tanıya bilməyən, "Nə fərqi var, hamısı elə mənim balamdı", deyən kişinin sözləri məni daha da duyğulandırır. Bu sözləri söyləyən valideyn Azad Məmmədov Cəlilabaddan gəlib. O deyir ki, dövlətini, torpağını bu qədər sevən əsgərlərin Vətənə sədaqətlə xidmət edəcəklərinə əminəm.

Zabit Q.Nəsibov gənc əsgərləri hərbi andı içmələri, şəxsi heyəti isə yeni tam hüquqlu əsgərlərin xidmətə gəlmələri münasibəti ilə təbrik edərək bildirib ki, müasir, müstəqil dövlətimizin memarı və qurucusu olan ulu öndər Heydər Əliyev həm də Azərbaycan Ordusunun yaradıcısıdır. "Bu gün bir mərkəzdən idarə edilən, vahid komandanlığa tabe olan, müasir hərb elminin tələblərinə cavab verən Azərbaycan Ordusu ümummilli lider Heydər Əliyevin başladığı və Ali Baş Komandan İlham Əliyevin uğurla davam etdirdiyi müdrik siyasət nəticəsində gündən-günə möhkəmlənir, döyüş qabiliyyətini artırır. Tarix sübut edib ki, peşəkar ordusu olan xalqın müstəqilliyi əbədidir. Peşəkar ordunun formalaşması isə güclü ordu quruculuğu prosesindən keçir". Polkovnik üzünü gənc əsgərlərə tutaraq onlara şəxsi heyətin sıralarında daim döyüş hazırlığını artırmağı, vəzifə borclarının öhdəsindən bacarıqla gəlməyi, Vətənimizi göz bəbəyi kimi qoruyaraq bu gün içdikləri anda sadiq qalmalarını tövsiyə edib.

Sonra söz gənc əsgər Afiq Abuşova verilib. Əsgər bu günün onların həyatının ən əlamətdar və məsuliyyətli günlərindən biri olduğunu qeyd edərək bildirib ki, biz hər bir sətiri Vətən yolunda şəhid olmuş oğulların qanı ilə yazılmış hərbi andı qəbul edərək, Vətənimiz Azərbaycana və onun xalqına sadiq olacağımıza, ərazi bütövlüyümüzü və müstəqilliyimizi qoruyacağımıza söz verdik.

Əsgər atası Tahir İbrahimov İmişli rayonundan gəlib. Dörd oğul atası sonuncu övladının da Vətən qarşısında müqəddəs borcunu yerinə yetirmək üçün and içməsindən qürurunu gizlətmir. "Ümumiyyətlə, biz valideynlərin əsas vəzifəsi öncə övladlarımızı Vətəni qorumağa hazır olan vətəndaş kimi yetişdirməkdir. Əbəs yerə demirlər ki, oğul düşmən çəpəridir".

Valideynlər, hərbi hissəyə gəlmiş qonaqlar əsgər yataqxanasını ziyarət edərək şəxsi heyətin məişət şəraiti ilə yaxından tanış olublar. Əsgərlər üçün yaradılmış şərait hamıda xoş ovqat yaradıb.

**"Azərbaycan Ordusu"**

# Azərbaycan Respublikası Silahlı Qüvvələrinin şəxsi heyəti ilə ictimai-siyasi hazırlıq sistemində keçirilən dərs

(İctimai-siyasi hazırlıq qrupunun rəhbərinə dərsə hazırlaşmaq üçün kömək)

## Mövzu: 26 Fevral - Xocalı faciəsi

*İctimai-siyasi hazırlıq qrupunun rəhbəri bu dərsə hazırlaşarkən Xocalı faciəsinə dair nəşr olunmuş vəsaitlərdən, dövri mətbuatda çap olunmuş materiallardan, həmin faciənin iştirakçılarının xatirələrindən istifadə etməli və öz bölməsinin tapşırıqlarını, xüsusiyyətlərini, xidmət şəraitini nəzərə alaraq mövzunu bölmənin gündəlik həyatı ilə əlaqələndirməlidir.*

Suallar:

1. Xocalı faciəsi XX əsrin ən böyük cinayətlərindən biridir.
2. Xocalı faciəsinin səbəbləri.
3. Xocalının qəhrəmancasına müdafiəsi. Xocalının qisasını Azərbaycan əsgəri almalıdır.

### Xocalı faciəsi XX əsrin ən böyük cinayətlərindən biridir

24 il bundan əvvəl, fevralın 25-dən 26-na keçən gecə Ermənistan silahlı qüvvələri, Azərbaycanın Dağlıq Qarabağ bölgəsində yaşayan ermənilərdən ibarət silahlı dəstələr, Xankəndidə yerləşən keçmiş Sovet ordusunun 366-cı motoatıcı alayının şəxsi heyətinin və onun sərəncamında olan hərbi texnikanın bilavasitə köməyi ilə qədim tarixə malik Azərbaycanın Xocalı şəhərini işğal etdilər. Azərbaycan xalqına qarşı soyqırımı siyasəti həyata keçirildi. Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev demişdir: "Xocalı soyqırımı XX əsrin ən böyük cinayətlərindən biridir".

Hücum başlanmazdan əvvəl, hələ fevralın 25-də axşam şəhər artilleriya qurğularından, ağır hərbi texnikalardan güclü atəşə tutuldu. Nəticədə şəhərdə yanğın başladı və fevralın 26-da səhər Xocalı tamamilə od içində idi. Şəhərdə qalmış əhali - təxminən 2500 insan öz doğma evlərini tərk etməyə məcbur oldu.

Onların yeganə məqsədi yaxınlıqdakı və əhalisi əsasən azərbaycanlılardan ibarət olan Ağdam şəhəri istiqamətinə çıxmaqdan ibarət idi. Xocalı şəhərini darmadağın etmiş erməni silahlı birləşmələri xüsusi bir qəddarlıqla dinc əhaliyə divan tutdular.

Nəticədə Xocalının 613 nəfər dinc sakini qətlə yetirildi. Onların 63 nəfəri uşaq, 106 nəfəri qadın, 70 nəfəri isə yaşlı insanlar idi. Təcavüz zamanı 8 ailə tamamilə məhv edilmiş, 130 uşaq valideynlərindən birini itirmişdir. 487 nəfər yaralanmışdır. Onlardan 76 nəfəri uşaq olmuşdur. 1275 nəfər əsir götürülmüş, 155 nəfər isə itkin düşmüşdür. Ermənilərin qəsbkarlığı Azərbaycan dövlətinə və vətəndaşların şəxsi əmlakına 5 (beş) milyard manat dəyərində (01.02.1992-ci il tarixinə olan qiymətlərlə) külli miqdarda zərər vurmuşdur.

Ermənilərin Xocalıda törətdikləri vəhşiliklər, bu kütləvi və amansız insan qırğını erməni qəsbkarlarının Azərbaycanın dövlət müstəqilliyini, ərazi bütövlüyünü hədəfə almış məqsədyönlü irticaçı siyasətinin yeni bir mərhələsi olmaqla bəşər tarixində qara ləkə kimi qalacaqdır. Amma Ermənistan heç nədən çəkinmir, əksinə, azərbaycanlıların soyqırımına həyasızcasına haqq qazandırır. Ermənistanda indinin özündə də anti-azərbaycan siyasəti yürüdülür, Azərbaycanın yeni torpaqlarının ilhaq olunması üçün dövlət miqyasında ideoloji təxribatlar hazırlanır. Saxtalaşdırılmış erməni tarixi gənclərin şovinist ruhda böyümələrinə zəmin yaradır.

Xocalı soyqırımını XX əsrin ən böyük cinayəti adlandıran Prezident İlham Əliyev demişdir: "... Bilirsiniz ki, ermənilər xaricdəki imkanlarından istifadə edərək, dünya birliyinə Xocalı faciəsi haqqında təhrif edilmiş məlumatlar çatdırmağa cəhd etmişlər. Əfsuslar olsun ki, uzun illər ərzində buna müvəffəq olmuşlar... Bizim siyasətimiz, xüsusilə xaricdəki fəaliyyətimiz, Xocalı haqqında həqiqətləri dünya birliyinə çatdırmağımız bu vəziyyəti, demək olar ki, tamamilə dəyişdirdi... Biz bütün ölkələrdə kampaniyalar keçiririk, həm səfirliklər, həm də Heydər Əliyev Fondu vasitəsilə. Bildiyiniz kimi, fond bu məsələ ilə çox fəal məşğul olur. Bizim təşəbbüsümüzlə yaradılmış İslam Konfransı Təşkilatının Gənclər Forumu da bu məsələ ilə bağlı fəal işləyir... Xocalı soyqırımı ermənilərin vəhşiliyini göstərmişdir... Mən əminəm ki, gün gələcək Xocalı faciəsini törədən, dinc əhaliyə qarşı qəddarlıq edən, dinc əhalini məhv edən erməni cinayətkarları məhkəmə qarşısında cavab verəcəklər. O gün gələcəkdir".

### Xocalı faciəsinin səbəbləri

XX yüzildə ermənilərin Osmanlı İmperatorluğuna və Azərbaycan türklərinə məxsus olan torpaqlara qarşı ərazi iddiaları irəli sürməsi qanlı toqquşmalara səbəb olmuşdur. Bu torpaqların onlara məxsusluğunu iddia edən ermənilər əslində "Dənizdən-dənizə Ermənistan" planını həyata keçirmək istəyirdilər. Bu amili nəzərdə tutan Ö.F.Nemanzadə hələ 1905-ci ildə "İrşad" qəzetində yazırdı: "Ermənilər öz planlarını həyata keçirmək üçün bizi İrəvandan, Qarabağdan və Qarsdan qovmağa çalışacaqlar. Biz bilməliyik ki, ermənilər bu yolda hər bir alçaqlığa əl ata bilərlər. Onlar qəsdən müsəlmanları öz üzərlərinə qaldıracaq, onların hücumuna və özlərinin bir qədər artıq itkisinə şərait yaradacaq və beləliklə, bütün Avropanın diqqətini əzabkeş bir xalq olmalarına cəlb edəcəklər. Onlar öz cinayətləri üçün tədricən planlar hazırlayır və onları həyata keçirməyə yollar axtarırlar".

XX yüzilliyin 80-ci illərinin sonunda dünyada və o cümlədən SSRİ-də baş verən iqtisadi-siyasi proseslər nəticəsində sosializm sistemi iflasa uğradı. SSRİ hegemon rolunu itirməyə başladı. Belə bir vaxtda digər amillərlə yanaşı, Sovet İmperiyasına qarşı ərazisi ruslar tərəfindən işğal edilərək zorla bu dövlətə birləşdirilən xalqlar tərəfindən başladılan milli azadlıq hərəkatı Sovetlər Birliyinin süqutunu sürətləndirdi. Xalqımızın illərlə uğrunda mübarizə apardığı müstəqillik arzusu gerçəkləşdi. Lakin müstəqil milli dövlət quruculuğu dövrünə qədəm qoyan Azərbaycanın vəziyyəti, həm götürdüyü xarici siyasi kurs, həm də 1988-ci ildən başlayan erməni təcavüzü nəticəsində xeyli ağırlaşdı.

SSRİ-də milli münaqişələrin qızışması yönündə edilən hərəkətlərə qarşı mərkəz tərəfindən heç bir tədbir görülmürdü. Problemlə bağlı apardığımız tədqiqat və hadisələrin müqayisəli təhlili bunun iki başlıca səbəbinin olduğunu göstərir. Bu səbəblər eyni zamanda baş verən, bir-birilə bağlı olan proseslər olmuşdur. Bunlardan birincisi ondan ibarətdir ki, SSRİ-nin rəhbərliyinə daxil olan adamların əksəriyyəti milli münaqişələr vasitəsilə Sovet imperiyasının bütövlüyünü qoruyub saxlamaq niyyətində idi.

İkinci mühüm səbəb isə Sovet İttifaqının dağılması ilə bağlı idi. Bəzi politoloqlar və siyasətçilər belə hesab edirlər ki, bu prosesdə beynəlxalq güclərin və böyük dövlətlərin rolu çox olmuşdur. Onlar milli münaqişələr vasitəsi ilə SSRİ-ni dağıtmaq niyyətində idilər və Sovet rəhbərliyinə daxil olan bir çox adamlar onlara yardımçı oldu.

Avropada və Amerikada ermənilərin separatçı hərəkətləri "yenidənqurmanın" ilk dövrlərində demokratiya, insan haqları uğrunda mübarizə adı altında mütərəqqi, Sovet totalitarizminə qarşı çıxan qüvvə kimi müdafiə və təbliğ olunmağa başlandı. Öz torpaqlarını müdafiə edən, separatizmin əleyhinə olan Azərbaycan xalqı isə guya SSRİ-ni qoruyub saxlamaq istəyən mühafizəkar, dindar, islam fundametalistləri kimi təqdim edildi.

O dövrdə Dağlıq Qarabağdakı hadisələr müstəqilliyimizin əleyhinə yönəlmişdi və Xocalı soyqırımı da həmin prosesin kulminasiya nöqtəsi idi. Bu, əslində xalqımızın müstəqillik mübarizəsinin məhv olması üçün hazırlanmış ssenari idi və ermənilər bu planı soyqırım kimi həyata keçirdilər.

Xocalıda həyata keçirilən soyqırım və bütövlükdə Dağlıq Qarabağ problemi Sovet siyasətinin tərkib hissəsi idi.

Xocalı hadisələrinə qədər Ağdam, Sumqayıt hadisələri baş vermişdi. Bəzi publisistlər, politoloqlar belə hesab edirlər ki, əgər Sumqayıt hadisəsinə qədər Qorbaçov Dağlıq Qarabağı Ermənistana verməyə daha çox meyilli idisə, Azərbaycan xalqının sərt müqaviməti onun tərəddüd etməsinə səbəb oldu. O, bundan sonra problemi kompromis yolu ilə həll etməyə üstünlük verdi.

Azərbaycan torpaqlarının bir hissəsi olan Qarabağ aran və dağlıq hissədən ibarətdir. Azərbaycana gəlmə olan ermənilər Qarabağın dağlıq ərazisinin hamısında deyil, yalnız bir hissəsində yaşamışlar. Təsadüfi deyil ki, "Dağlıq Qarabağ" ifadəsi termin kimi I Dünya müharibəsinin sonlarından işlənməyə başlanmışdır. 1986-cı ilin ortalarında Dağlıq Qarabağ erməniləri özlərinin Yerevandakı və xaricdəki havadarlarının köməyilə yenidən separatçılıq hərəkatına başladılar. Azərbaycanın tərkibindəki siyasi, iqtisadi, sosial və mədəni muxtariyyətə malik olan Dağlıq Qarabağda yaşayan erməni icması millətlərin öz müqəddəratını təyin etmək hüququnu bəhanə edərək Azərbaycan dövlətinə tabe olmaqdan imtina etdi. Rusiya və Ermənistan isə Dağlıq Qarabağ ermənilərinin müdafiəçisi kimi çıxış etdi.

Çar Rusiyası hələ XVIII əsrin 80-ci illərində erməni "dövləti"ni məhz Qarabağ ərazisində yaratmağı nəzərdə tuturdu. Hətta bu planı həyata keçirmək üçün Rusiya imperatoru II Yekatrina (1762-1796-cı illər) 1783-cü il aprelin 6-da göstəriş də vermişdi.

XI Qırmızı Ordunun Azərbaycana hücumu ərəfəsində Moskvaya gəlmiş erməni nümayəndələri ərazi güzəştləri, o cümlədən Qarabağın onlara verilməsi müqabilində Azərbaycan hökumətini devirmək işində Sovet Rusiyası ilə razılığa gəlmişdilər. 1920-ci il martın 22-də Qarabağda Moskvanın təhriki ilə erməni qiyamının baş verməsi və Azərbaycan Ordusunun Qarabağa cəlb edilməsi əvvəlcədən hazırlanmış təxribatın nəticəsi idi.

Məhz buna görə 1920-ci ilin aprelində Azərbaycan Sovet ordusu tərəfindən işğal edildikdən az sonra torpaqlarımızın bir hissəsi Ermənistana və Gürcüstana verildi. Bununla yanaşı, ermənilər Qarabağın dağlıq hissəsini də ələ keçirmək üçün fəallaşdılar. Bu planın hələlik baş tutmadığını görən ermənilər Sovet hakimiyyəti ilə hiyləgər bir yol tutdular. 1921-ci il iyulun 5-də Moskvanın göstərişi ilə Qarabağın dağlıq hissəsində ermənilər üçün vilayət yaradılması və onun Azərbaycan Sovet Sosialist Respublikasının tərkibində saxlanılması haqqında qərar qəbul edildi.

### Xocalının qəhrəmancasına müdafiəsi. Xocalının qisasını Azərbaycan əsgəri almalıdır

Xocalı Qarabağ hadisələri başlanmazdan əvvəl içindən Ağdam-Şuşa və Əsgəran-Xankəndi yolları keçən bir qəsəbə idi. 1988-ci ilə olan məlumata görə, qəsəbədə 2135 nəfər adam yaşayırdı. Dağlıq Qarabağda yeganə aeroport da burada idi. 1988-ci ildə Ermənistandan qovulmuş azərbaycanlıların və Fərqanədən qaçmağa məcbur olan Ahıska türklərinin bir hissəsi də Xocalıda məskunlaşmışdılar. 1991-ci ilin ortalarında artıq burada 6300 insan yaşayırdı. Həmin ilin axırlarında ermənilərin şəhərə hücumlarından sonra əhalinin bir hissəsi Xocalını tərk etdi. Respublika MTN-nin məlumatına və digər sənədlərə əsasən, faciəli fevral hadisələri ərəfəsində şəhərdə 3 mindən bir qədər çox adam qalmışdı. 1991-ci ilin oktyabrından Xocalı ilə avtomobil nəqliyyatı əlaqəsi kəsildi. 1992-ci il yanvarın 2-dən şəhərə elektrik enerjisinin verilməsi dayandırıldı. Azərbaycanla ancaq hava yolu ilə əlaqə mümkün idi. Son dəfə fevralın 13-də hərbi vertolyot ərzaq və yanacaq gətirdi. Ermənilər tərəfindən edilən aramsız hücumlara, Azərbaycan rəhbərliyinin Xocalının taleyinə biganə münasibətinə baxmayaraq, əhali öz tarixi yurd yerini tərk etmək istəmirdi. Şəhər mühasirədə yaşayırdı, ancaq təslim olmurdu.

Xocalını aeroportun komendantı, milis kapitanı Əlif Hacıyevin komandası altında birləşən, ixtiyarlarında ancaq 1 "Alazan" tipli artilleriya qurğusu, 3 zirehli transportyor olan, yalnız atıcı silahlarla silahlanmış, Milli ordunun, XTMD-nin və yerli özünümüdafiə dəstəsinin döyüşçülərindən ibarət 160 nəfərlik qüvvə qoruyurdu. Şəhərin müdafiəçiləri ermənilərin bütün hücumlarını qətiyyətlə və mərdliklə dəf edirdilər. Məhz buna görə də əgər əvvəllər ermənilər azərbaycanlıların yaşadıqları kəndləri işğal edərkən əsasən piyada bölmələri ilə kifayətlənirdilərsə, Xocalıya son hücum zamanı (fevralın 25-dən 26-na keçən gecə) ilk dəfə artilleriyadan və zirehli texnikadan geniş istifadə etdilər.

366-cı alayın Xocalıda qanlı cinayət törədilməsində iştirakı dünya ictimaiyyətinə məlum olduqdan sonra MDB silahlı qüvvələrinin komandanlığı öz cinayətlərini ört-basdır etmək üçün onu münaqişə zonasından, sonra isə Azərbaycandan təcili çıxarmağa məcbur oldu. Lakin alayın silah və texnikasının çox hissəsi ermənilərə saxlanıldı. Seyran Oqanyanın komandiri olduğu 2-ci tabor isə demək olar ki, tam heyətdə Xankəndidə qaldı.

Bu günlərdə Xocalı faciəsinin 24-cü ildönümü tamam olur. Xocalı faciəsində həlak olanların xatirəsi hər bir Azərbaycan vətəndaşı üçün əziz olmalıdır. Hər il fevralın 26-da bu dəhşətli faciəni yad edən hər bir azərbaycanlı ermənilərin vəhşiliyini unutmamalıdır. Xocalı faciəsini tarixi hadisə kimi yadda saxlamaqla kifayətlənməməliyik. Xocalı faciəsi azərbaycanlıların qəlbinə qorxu, ermənilərin üstünlüyünə inam hissləri səpməməli, əksinə, qisasçılıq hisslərimizi alovlandırmalıdır. Yaddan çıxartmamalıyıq ki, o müdhiş gecədə həlak olan qocaların, qadınların, uşaqların, əsir düşmüş, alçaldıcı təhqirlərə məruz qalmış, namusu tapdalanmış qız-gəlinlərin qisası hələ alınmayıb. Ümummilli lider Heydər Əliyevin dediyi "Azərbaycan milləti aciz millət deyildir. Azərbaycan gənci erməni gəncindən aciz deyil, gücsüz, cəsarətsiz deyil, əksinə, azərbaycanlılar daha qüdrətli, güclü və cəsarətlidirlər. Ancaq bu insanı, bu gənci müharibə etməyə, silahdan istifadə etməyə öyrətmək lazımdır" sözləri bir daha sübut edir ki, hər bir Azərbaycan vətəndaşı, hər bir Azərbaycan gənci düşməndən qisas almağa qadirdir.

İndi Azərbaycan torpaqlarının 20 faizi ermənilər tərəfindən işğal edilib. Həmin torpaqların düşməndən azad edilməsi üçün Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin rəhbərliyi altında məqsədyönlü ordu quruculuğu işi davam etdirilərək, güclü daxili və xarici siyasət aparılır. Bu siyasət Azərbaycanın ərazi bütövlüyünün bərpasına yönəldilib.

Yanvarın 10-da Nazirlər Kabinetinin 2015-ci ilin sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunan iclasında Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev demişdir: "Azərbaycanın hərbi potensialı 2015-ci ildə böyük dərəcədə möhkəmlənmişdir. Biz bunu döyüş meydanında da görürük. 2015-ci ildə təmas xəttində Azərbaycan tam üstünlük təmin etmişdir və öz iradəsini diktə etmişdir. Onlarla işğalçı məhv edildi. Ermənistan rəhbərliyi panikadadır, isterikadadır, xarici qüvvələrə müraciət edir ki, onları müdafiə etsinlər. Ancaq sual olunur: erməni əsgərləri hansı torpaqda həlak olurlar? Azərbaycan torpağında həlak olurlar. Getsinlər, çəkilsinlər bizim torpaqlarımızdan, bu zaman münaqişəyə son qoyular, heç kim həlak olmaz və sülh bərpa edilə bilər". Sonra Prezidentimiz nitqinə davam edərək demişdir: "Biz bundan sonra da bütün imkanlardan istifadə edəcəyik. Siyasi, diplomatik və iqtisadi rıçaqlardan istifadə edəcəyik, eyni zamanda döyüş potensialımızı gücləndirəcəyik və beləliklə, münaqişənin həllini yaxınlaşdıracağıq".

Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin dediyi hər bir sözünü biz hərbi qulluqçular dərindən dərk etməli, öz vəzifə borcumuzu vicdanla yerinə yetirməklə, döyüş və ictimai-siyasi hazırlıq dərslərində, təlimlərdə hərbi biliklərə dərindən yiyələnməklə, mənəvi-psixoloji və fiziki hazırlığımızı artırmaqla, intizamlı olmaqla özümüzü torpaqlarımızın azadlığı uğrunda gələcək döyüşlərə hazırlamalıyıq. Xocalı faciəsində, eləcə də ermənilər tərəfindən törədilmiş digər cinayətlərdə həlak olmuş, təhqir edilmiş soydaşlarımızın qisasını ancaq biz Vətənimiz Azərbaycanın ərazi bütövlüyünü tam bərpa etməklə ala bilərik.

**Müdafiə Nazirliyi
Mənəvi-Psixoloji
Hazırlıq və İctimaiyyətlə
Əlaqələr İdarəsi**

Aktual müsahibə

# “Azərbaycan Yaxın Şərqdə tolerantlıq vadisidir”



*Ümummilli lider Heydər Əliyevin "Dövlət, ölkə nə qədər çox xalqı birləşdirsə, bir o qədər zəngin olur, çünki onların hər biri ümumdünya mədəniyyətinə və sivilizasiyasına öz töhfəsini verir" fikirləri Şərqlə Qərbin qovşağında yerləşən Azərbaycanın tolerant ölkə olduğunu göstərməklə yanaşı, eyni zamanda buradakı multikultural mühitin mövcudluğunu təcəssüm etdirir. Ölkəmizdə yaşayan bütün azsaylı xalqların mədəniyyəti müxtəlif qanunlar və hüquqi-normativ aktlarla tənzimlənir. Bildiyimiz kimi, Prezident İlham Əliyevin sərəncamı ilə 2016-cı ilin Azərbaycan Respublikasında "Multikulturalizm ili" elan edilməsi ölkəmizin multikultural dəyərlərə verdiyi önəmin göstəricisidir. Sərəncamda bildirilir ki, tarixi İpək yolunda yerləşən Azərbaycan müxtəlif sivilizasiyaların qovuşduğu məkan olaraq əsrlər boyu milli-mədəni rəngarənglik mühitinin formalaşdığı, ayrı-ayrı millətlərin və konfessiyaların nümayəndələrinin sülh, əmin-amanlıq, qarşılıqlı anlaşma və dialoq şəraitində yaşadığı diyar kimi tanınmışdır. Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinin yaradılması müasir dövrdə respublikamızda gerçəkləşdirilən siyasətin tolerantlıq prinsiplərinə bu gün də sadiq qalmasının bariz nümunəsidir.*

*Bu günlərdə Bakı Dağ Yəhudiləri Dini İcmasının sədri Milix Yevdayevlə görüşüb söhbət apardıq. Həmin söhbəti qəzetimizin oxucularına təqdim edirik.*

***- Milix müəllim, bu gün Azərbaycanda müxtəlif etnosların, millətlərin və xalqların, dinlərin, konfessiyaların, mədəniyyətlərin nümayəndələri əmin-amanlıq şəraitində yaşayırlar. Onlar müstəqil Azərbaycanın bərabər hüquqlu vətəndaşlarıdır. Məscidlər, kilsələr, sinaqoqlar, məbədlər sərbəst fəaliyyət göstərir. İcma sədri kimi bu barədə fikrinizi bilmək maraqlı olardı.***

- Tolerantlıq, multikulturalizm müəyyən zaman çərçivəsində illər boyu müxtəlif tarixi proseslərdən keçərək yaranır. İnsanların tərbiyəsində, qanında, qəlbində, şüurunda onu haradansa gətirib burada tətbiq etmək mümkün deyil. Bu illərlə yaranan bir həyat tərzidir. Özü də məhz Azərbaycan xalqına məxsus olan həyat tərzi. O həyat tərzidir ki, ulu öndərin dediyi kimi, tolerantlıq yüksək mədəniyyətin təzahürüdür. Bəlli həqiqətdir ki, Azərbaycan Yaxın Şərqdə tolerant dövlətdir. Xalq öz yüksək mədəniyyəti ilə gündəlik həyatını yaşayır. Biz gözümüzü açıb həmişə Azərbaycan xalqını ətrafımızda, yaxınımızda görmüşük. Bu məmləkətdə heç zaman ayrı-seçkilik görməmişik. Tarix boyu belə olub, belə də olacaq.

Bilirsiz, Musa peyğəmbərə Allah Təala tərəfindən “Tövrat” nazil olanda, orada on müddəa seçilir. İkinci müddəada deyilir ki, ətrafdakılarınızı özünüz kimi sevin. Bunu Allah Təala buyurursa, deməli, biz də deyilənlərə əməl edib, övladlarımızı o ruhda tərbiyə edirik. Azərbaycan xalqının böyüklüyü ondadır ki, biz heç vaxt qulluq etdiyimiz dinin aliliyindən danışmırıq. Heç bir din xadimi öz dininin aliliyindən söhbət açmır. Başqa dövlətlərdə dinin içində olan təriqətlərin necə insanları bir-birindən ayrı saldığının zaman-zaman şahidi oluruq. Bu yaxınlarda ulu öndərin adını daşıyan "Heydər" məscidində vəhdət namazı qılındı.

***- Siz din xadimi olaraq beynəlxalq arenada Azərbaycanın maraqlarının müdafiəçisi kimi çıxış edir, xüsusilə nüfuzlu tədbirlərdə Ermənistanın təcavüzkar siyasətinə qarşı çıxır, daim Azərbaycanın haqq səsini dünyaya yayırsınız. Həmçinin Azərbaycanın tolerantlıq modelini dünya ictimaiyyətinə çatdırırsınız.***

- Müdriklərimizin bir deyimi var: "Xoşbəxt o kəsdir ki, evində xoşbəxtdir". Məgər Azərbaycan bizim evimiz deyilmi? Deməli, biz Azərbaycan adlı evimizin xoşbəxtliyi, əmin-amanlığı üçün lazım gələrsə, canımızdan, qanımızdan keçməyə hazır olmalıyıq. Dağlıq Qarabağın, erməni işğalında olan digər torpaqlarımızın dərdi Azərbaycanın ərazisində yaşayan bütün vətəndaşların, o cümlədən də dağ yəhudilərinin dərdidir. Çünki biz əsrlər boyu Azərbaycan xalqının xoş gününə sevinib, dar günündə yanında olmuşuq. Fəxrlə deyə bilərəm ki, biz Azərbaycanın çörəyini yeyib, suyunu içib yaşamışıq. Mən yüksək kürsülərdən çıxış edərkən tədbir, forum, simpozium iştirakçılarını Azərbaycana səfər etməyi təklif etmişəm. İstəmişəm ki, Azərbaycanda tolerantlığın yüksək səviyyədə olduğunu öz gözləri ilə görsünlər. Bu gün respublikamızda 9 sinaqoq, 2 yəhudi məktəbinin və məktəbəqədər müəssisələrin fəaliyyət göstərdiyinin şahidi olsunlar. Amerikada yaşayan ravin David Volpe ölkəmiz haqqında təəssüratlarını qələmə alaraq yazırdı ki, Azərbaycan Yaxın Şərqdə tolerantlıq vadisidir.

Həmişə deyirəm ki, yəhudilərin dünyada yaşamağa yeri yoxdursa, Azərbaycana gəlsinlər. Burada hamımıza yer var. Bu ölkədə antisemitizm yoxdur və bunu hər zaman dünyada bəyan edirlər.

Biz dünyanın siyasi mənzərəsini çox yaxşı görür və birmənalı şəkildə deyirik ki, Azərbaycanımızı qorumalıyıq. Biz bugünkü günümüzü, əmin-amanlığımızı qorumalıyıq. Bunları qorumaq üçün möhtərəm Prezidentimizin ətrafında sıx birləşməliyik.

***- Qarabağ müharibəsinin birinci mərhələsində Vətənimizə göz dikən erməni quldurlarına qarşı könüllü orduya yazılanların sırasında yəhudi əsilli 23 yaşlı Albert də var idi... O, doğulduğu Azərbaycan torpağı uğrunda canını qurban verib şəhidlik qazandı, iki xalqın dostluq tarixinə yeni səhifələr yazdı. Milix müəllim, səfər etdiyiniz ölkələrdə bu barədə danışırsınızmı?***

- Əlbəttə, dəfələrlə Albertin qəhrəmanlığından bəhs etmişəm. Hətta Azərbaycanın Yəhudilər icması adından Kaliforniya ştatının Dövlət Assambleyasının "Dağlıq Qarabağ Respublikasına münasibəti" haqqında 32 birgə qətnaməyə qarşı narazılığımı yazılı surətdə bildirəndə də, orada qeyd etmişdim ki, Azərbaycanın Milli Qəhrəmanı yəhudi əsilli 23 yaşlı Albert Aqarunov ermənilərin Şuşaya hücumu zamanı öldürülmüşdür. A.Aqarunov xalqlarımızı bir daha bir-birinə qırılmaz tellərlə bağlayıb, əbədi dostluğa möhtəşəm körpü yaratdı. Albertlə təkcə biz yox, bütün Azərbaycan fəxr edir. Onun adıyla Azərbaycan xalqı qürur duyur. Şəhidlik islam dininə mənsub olan bir zirvədir. Albert şəhidlik zirvəsinə ucaldı. O, yəhudi dininə qulluq edirdi, amma "Azərbaycan Vətənimdir", - dedi. - "Mən Vətənimin uğrunda döyüşürəm".

Bilirsiz, qəhrəmanların ölümü həyatın davamıdır: Albert ölümün gözünə dik baxa bildi. Onun tərbiyəsindən, həyat tərzindən, dünyaya baxışından, həmyaşıdlarından fərqli düşüncələrə malik olmasından həftələrlə danışmaq olar. Albert nəinki yəhudi xalqının övladı, bütün Azərbaycan xalqının qəhrəman, vətənpərvər oğludur. Onu dəfn edən zaman ravin bir tərəfdə “Tövrat”ını, digər tərəfdə isə Şeyx həzrətləri “Quran”ını oxuyub.

***- Dağ yəhudilərinin Qubada Qırmızı qəsəbədə məskunlaşmasına dair hansı bilgilər var?***

- Bizim bugünkü dilimiz fars dilli xalqların dil qrupuna aid edilir. Qubada məskunlaşmağımızın 283 illik tarixi mövcuddur. Ulu babalarımız Şahdağın ətəklərində yaşayıb. Onlar burada uzun müddət qaçaq-quldur dəstələrinin aramsız hücumlarına məruz qalıblar. Belə vəziyyətə davam gətirməyin mümkünsüz olduğunu biləndə Quba xanı Hüseynəli xana müraciət ediblər. Hüseynəli xan dağ yəhudilərinin Qudyalçayın sol sahilində məskunlaşmasına icazə verib. 1920-ci ilədək bu qəsəbə yəhudi qəsəbəsi, Sovet dönəmində isə Qırmızı qəsəbə adlandırılıb. Bolşeviklərin nümayəndəsi Petrov öz dəstəsi ilə yəhudi qəsəbəsində ana babamın evində qərargah yaradıb. Dağ yəhudiləri adına gəlincə, tarixən dağların ətəklərində yaşadığımızdan yaranmış məfhumdur. Bizim mentalitetimiz Qafqaz xalqlarının adət-ənənələrinə uyğun gəlir. Toy-düyünümüz, yas mərasimlərimiz də oxşardı.

***- Milix müəllim, söhbətimizi ənənəvi bir sualla bitirmək istəyirəm. Azərbaycan əsgərinə nə arzulardınız?***

-İnanırıq ki, müstəqilliyimizin qarantı olan qüdrətli ordumuz möhtərəm Prezidentimiz, Ali Baş Komandan İlham Əliyevin əmriylə o uca bayrağımızı Qarabağ səmasında dalğalandıracaq və Allah Təala o günü görməyi bizə qismət edəcək. Güvənc yerimiz, ümidimiz, arxa-dayağımız olan ordumuzun əsgərlərinə döyüş ruhu, qələbə əzmi, Vətənimizin keşiyində ayıq-sayıq dayanmağı, Vətən andına sədaqətlə xidmət etməyi arzulayıram.

***- Maraqlı müsahibəyə görə çox sağ olun.***

**Söhbəti apardı:**
**Lalə HÜSEYNOVA,**
**"Azərbaycan Ordusu"**

# Xəbərlər: hadisələr, faktlar

## ABŞ Prezidenti rusiyalı həmkarına zəng vurub



ABŞ Prezidenti Barak Obama ilə rusiyalı həmkarı Vladimir Putin arasında telefon danışığı olub.

Telefon danışığı Vaşinqtonun istəyi ilə reallaşıb.

Liderlər son günlərdə Suriyada baş verən hadisələri müzakirə edib.

Prezidentlər, həmçinin Suriya münaqişəsinə dəstək məqsədilə Münxendə keçirilən Beynəlxalq qrupun iclasının yekunlarını müsbət qiymətləndiriblər.

## Türkiyəni səyahət edən turistlər sualtı qayıqla da gəzə biləcəklər



Türkiyənin Antalya bölgəsinə səyahət edən turistlər bundan sonra sualtı qayıqla da gəzintiyə çıxa biləcəklər.

Anadolu Agentliyinin məlumatına görə, artıq turistlər üçün nəzərdə tutulmuş ilk sualtı qayıq Antalya sahillərində suya endirilib. Özəl bir şirkət tərəfindən sifariş olunan qayıq Finlandiyada tikilib.

Bildirilir ki, müasir standartlara cavab verən sualtı qayıqda bütün təhlükəsizlik məsələləri nəzərə alınıb.

## Yeni Zelandiyada 5,8 bal gücündə zəlzələ olub



Yeni Zelandiyanın böyük şəhərlərindən olan Kraysterçdə 5,8 bal gücündə zəlzələ baş verib.

Hadisə nəticəsində ölən və xəsarət alan olmayıb. Yeraltı təkanlar Kraysterç şəhərindən 17 km şimal-şərqdə qeydə alınıb. Zəlzələnin ocağı 8 kilometr dərinlikdə yerləşib.

## Mərkəzi Asiyanın ən hündür göydələnindəki yanğın söndürülüb



Yanğınsöndürənlər Astanada tikilməkdə olan "Abu Dhabi Plaza" göydələnində baş verən güclü yanğını söndürməyə nail olub. Hadisə nəticəsində heç kimin xəsarət almadığı bildirilir.

Hadisə yerinə təxminən 80 nəfər xilasedici cəlb olunub. Onlar yanan binadan 120 nəfəri təxliyyə ediblər. Qazaxıstanın Daxili İşlər Nazirliyinin fövqəladə vəziyyətlər üzrə komitəsi yanğının dizel yanacağı ilə işləyən qurğulardan qaynaqlandığını bildirib.

Xatırladaq ki, 88 mərtəbəli "Abu Dhabi Plaza" kompleksi Mərkəzi Asiyada ən hündür bina olacaq və dünyanın ən hündür göydələnləri sırasında 14-cü yeri tutacaq.

## Londonun mərkəzində ağac üzərində “dəbdəbəli” ev



Londonun mərkəzi hissəsində ağac üzərində tikilmiş "dəbdəbəli" ev xarici turistlərin marağına səbəb olur. "Virgin Holidays" memarlıq şirkətinin layihəsi ilə inşa olunmuş ev Afrika stilindədir.

Buradakı iki "daxma" tamamilə təbii materiallardan hazırlanıb və Afrikanın ənənəvi yaşayış evlərindən fərqlənmir. Evin içərisində tanınmış dizayner Xyubert Zandberqin dizaynı əsasında hazırlanmış iki yataq otağı var. Xyubert Zandberqin öz ölkəsində kreativ düşüncəsi ilə seçilir.

**AZƏRTAC-ın materialları əsasında**

***26 ildi yanvarın sazağı ürəyimizi üşüdür. Bugünkü sazaq beş-on gün əvvəlin sazağına bənzəmir. Heç beş-on gün sonra da belə sazaq olmayacaq; bu ayın sazağı 1990-cı ilin 19 yanvar gecəsinin eynidi sanki. O gecə kimsə sazaq hiss eləmirdi, bir istəyin istisində isinirdi hamı. Hamı müstəqillik təşnəsiydi. Son nəfəsində imperiyanın qana susayacağı da kimsəni qorxurtmurdu. İmperiya son nəfəsini o gecənin səhəri qaranlıqdan sıyrılmaqdaykən çəkdi.***

*Publisistik düşüncələr*

# Şəhidlər xiyabanında...



Bir vaxtlar şəhidlərimizin ziyarətinə qızlarımla gələrdim. İndi qızlarımla, nəvələrimlə gəlmişəm. Şəhidlər xiyabanına çatınca balaca Leylanın "Azərbaycan bayrağı!" harayına boylanırıq. Anası da, nənəsi də, mən də. Tanımağına sevindiyimiz qədər də, sevincinə, bu qədərsiz sevgisinə sevinirik; o qədər şirin, o qədər hərarətlə deyir ki! Qürrədən köksüm ürəyimə darlıq eləyir. Sazaq bizə yaxın düşə bilmir...

Ayaq saxlayırıq...

Leyla baş daşlarına baxır...

Leylanın qışqırığı qışın qış günü od olub canımı yandırır: Dayılar!

Kövrəlmişik.

"Elədi, quzum. Dayılarındı. Hamısı ananın qardaşıdı..." - demək istəyirəm, deyə bilmirəm. 3 yaşı var Leylanın; deyəcəklərimi anlayası, dərk eləyəsi deyil. Zamanı çatanda deyəcəm. Mən deyə bilməsəm anası deyəcək...

1993-cü ilin qışında 7 yaşlı qızım da burda belə duyğulanmışdı - baş daşını (baş daşlarını) ilk dəfə görürdü. Şəhidlərimiz onda hansı yaşdaydılarsa, indi də o yaşdadılar. Qızımın nəvələri üçün də o yaşda qalacaqlar...

Leyla Larisanın məzarına tərəf meyillənir; 14 yaşlı Larisanın daşlaşmış təbəssümü özünə çəkir Leylanı...

Bir vaxtlar Larisanın çantası da burdaydı, qəbrinin üstə. İndi yoxdu; Larisasızlıq "əridib" onu... Leyla Larisanı bir neçə ildən sonra tanıyacaq. Şəhidliyin nə olduğunu anlayanda. Onda biləcək ki, şəhidlərdən biri də babası Rəşidin şagirdi olub Faxralıda: İlqar Əhmədov.

Onda biləcək ki, həmin gecə xalq əsarət zəncirini qırmağa, müstəqilliyini bağrına basmağa çıxmışdı. İmperiyanın gözəgötürməzlik, istibdad, əsarət dayaqları o gecə laxladılacaqdı. 1920-ci ilin 28 aprel günü tarix olaraq "göy əsgiyə düyünləkdi". Dünya görəcəkdi ki, həqiqətən "Zülmün topu var, gülləsi var, qəlpəsi varsa, haqqın da yenilməz qolu, dönməz üzü vardır" - tarixə 70 il ləngiyən düzəliş ediləcəkdi. O düzəlişi xalqın adından 137 nəfərin şəhidliyi imzalayacaqdı. Vətənsevərlər, Vətəni sevənlər bu sənədi 1991-in noyabrında qəbul ediləcək "Müstəqillik haqqında Konstitusiya Aktı"nın əzəli səhifəsi biləcəkdi...

...Bir ana baş daşına baxır. Davamlı baxışları baş daşından üzülmür. Bir möcüzə həsrətindədi ki, daşlaşan baxışlarda tərpəniş yarana, bircə kəlmə eşidə, tək bircə kəlmə: "Ana!..". O ananı Leyla da görür. Görür və tələsik anasına qısılır.

...6-7 cavan gəlin yaxınlaşır Larisanın qəbrinə. Bizi görüncə dayanırlar. Qohumu bilirlər yəqin; az sonra öyrənirəm ki, orta məktəbdə bir sinifdə oxuyurlarmış...

Gəlinlik paltarında İlhamla Fərizənin məzarı önündə dayanan qızın yanaqları boyunca iki damla göz yaşı süzülür. Ürəyim gizildəyir.

1990-cı ilin 21 yanvar günü burda şəhidlərimizə qəbir qazanların sırasındaydım. Doğum günümüydü. Onda qızlarım Faxralıdaydı. Mən qazdığım məzarda dəfn edilən şəhidimizin kim olduğunu bilmirəm...

Şəhidlərimizin ziyarətinə gələn şagirdlərin yerişi də, duruşu da, baxışı da ürəyimi göynədir...

Qara paltarlı bir qadın görürəm. Ramiz Rövşənin "Qara paltarlı qadın" şeiri düşür yadıma...

30-32 yaşlı kişi 4-5 yaşlı iki uşaqla məzarlardan birinə yaxınlaşır. Hər ikisi baş daşında üzündə xırdaca bir təbəssüm donmuş kişinin şəklinə baxır. Cavan şəhid atanın oğludu, uşaq nəvəsi. 1990-nın yanvarında - atası şəhid olanda bu cavanın iki yaşı vardı. Atasının ziyarətinə babasını görməyən oğluyla gəlib. Ata, ana itirənlər məni bağışlasınlar. "Yetim böyüyür, Əzrayılın paxıllığı özünə qalır" - fikrinə görə məni qınamasınlar. O cavan iki yaşlı oğluna bu günümüzün ünvanını indidən tanıdır. Şəhidliyin nə olduğunu hələ başa düşməsə də; o da Leyla yaşlarındadı...

...Bir ananın hıçqırıq içində dedikləri məni varımdan yox eləyir: "Son nəfəsimdə sənə gəlmişəm, ay oğul!..". Nə bu hıçqırıqda, nə o kəlmələrdə təəssüf sezilmir; ana ürəyidi, oğul dağı (itkisi) atanın (ananın) son nəfəsinəcən canından üzülmür.

1990-cı ilin 19 yanvar gecəsi 1920-ci ilin 28 aprel səhərinin gözlərinə kül ələdi, azadlığı, müstəqilliyi bir boy da dikəltdi şəhidlərimiz...

Müstəqillik haqqında Konstitusiya Aktının ilk səhifəsi oldu 19 yanvar gecəsi...

...Şəhidlərimizin ruhunun səsini eşidirəm elə bil: Azərbaycanımızın müstəqilliyi naminə şəhid olduq. Torpaqlarımızı işğaldan azad etməlisiniz! Ruhumuz sıxılcımdan onda qurtaracaq!..

Leyla gözlərini daşlaşmış baxışlardan çəkə bilmir...

26 il əvvəlin bu gecəsi dünyaya gələnlər də oğluyla (qızıyla) gəlir şəhidlərimizin ziyarətinə...

Sazaqdı...

Şəhidlərimizin baxışları dil açıb Yunus Əmrə kəlamlarıyla dillənəcək elə bil:

*Biz dünyadan gedər olduq,*
*Qalanlara salam olsun...*

**Rəşid HÜSEYNOV,**
**"Azərbaycan Ordusu"**

# İdman

## Qadın güləşçilərimiz Kiyevdə yeddi medal qazanıblar



Kiyevdə Ukraynanın görkəmli güləşçi və məşqçilərinin xatirəsinə həsr olunmuş sərbəst, yunan-Roma və qadın güləşi üzrə XX beynəlxalq turnir keçirilib. Turnirdə iştirak edən qadın güləşi üzrə yığma komandamızın üzvləri 2 qızıl, 1 gümüş və 4 bürünc medal qazanıblar. Qızıl medalları yığmamıza Mariya Stadnik (48 kq) və Nataliya Sinişin (58 kq) qazandırıb. Mariya Stadnik keçirdiyi 4 görüşdə rəqiblərinə 1 xal belə verməyib. Finalda güləşçimiz yerli idmançı Oleksandra Kohutu məğlub edib. Nataliya Sinişin isə yarımfinalda komanda yoldaşı Yuliya Ratkeviçdən minimal hesabla üstün olub. Finalda isə güləşçimiz yerli idmançı Oksana Herhelə qalib gəlib.

Turnirdə 55 kiloqram çəki dərəcəsində mübarizə aparan Anjela Doroqan gümüş medala yiyələnib. Bürünc medalları yığmamıza Almaz İsmayılova (55 kq), Yuliya Ratkeviç (58 kq), Tatyana Omelçenko (60 kq) və Gözəl Zutova (69 kq) qazandırıblar.

## Azərbaycan komandası cüdo üzrə Avropa Kubokunun birincisidir



İspaniyanın Fuenxirola şəhərində cüdo üzrə gənclər arasında Avropa Kuboku yarışı başa çatıb. Yarışda iştirak edən Azərbaycan cüdoçuları, ümumilikdə, 5 qızıl, 1 gümüş, 4 bürünc medal qazanaraq, komanda hesabında birinci yeri tutublar.

Oğlanların yarışında 8 çəki dərəcəsindən beşində Azərbaycan idmançıları fəxri kürsünün ən yüksək pilləsinə yüksəliblər. Belə ki, Rövşən Əliyev (50 kq), Vüsal İbrahimov (55 kq), Elçin Hüseynov (60 kq), Paşa Əliyev (73 kq), Arif Qasımov (81 kq) qızıl medal qazanıblar. Rüfət Məmmədov, Yaşar Nəcəfov və Murad Fətiyev isə bürünc medallara layiq görülüblər. Bununla da yarışa qatılmış 8 Azərbaycan cüdoçusundan heç biri medalsız qalmayıb. Qızlardan ibarət komandamızda isə Şəfəq Həmidova 44 kq çəki dərəsində gümüş, Gültac Məmmədəliyeva isə 48 kq çəkidə bürünc medal qazanıblar.

## "Neftçi" komandası "Xəzər-Lənkəran"ı minimal hesabla məğlub edib



Futbol üzrə Azərbaycan Premyer Liqasında XXI tur növbəti qarşılaşma ilə davam edib. "Neftçi" doğma meydanda "Xəzər-Lənkəran" komandasını qəbul edib. "Neftçi" autsayder "Xəzər-Lənkəran" üzərində çətin də olsa, minimal hesablı qələbə qazanıb. Lənkəran təmsilçisi "Neftçi"dən qarşılaşmanın son dəqiqələrində qol görüb. Oyunun 86-cı dəqiqəsində Elşən Abdullayev komandasına qələbə qazandıran topu vurub - 1:0. Doqquz turda qol vura bilməyən və qələbə qazanmayan baş məşqçi Elbrus Məmmədovun yetirmələri isə bu matçda da fərqlənə bilməyiblər. Görüş bu hesabla da başa çatıb.

## Azərbaycan idmançısı atçılığın konkur növü üzrə beynəlxalq turnirdə qızıl medal qazanıb



İspaniyanın Valensiya şəhərində atçılığın konkur növü üzrə beynəlxalq turnirdə milli komandamızın üzvü Camal Rəhimov qızıl medal qazanıb. Bu nailiyyəti ilə C.Rəhimov "Rio-2016" Olimpiadasında iştirak etmək üçün aktivinə daha 50 lisenziya xalı əlavə edib.

**AZƏRTAC-ın materialları əsasında**

Matros Mürsəlov Qurban Mais oğuna 2015-ci ildə verilmiş sürücülük vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

Ehtiyatda olan gizir Hüseynova Tahirə Məhərrəm qızına 2000-ci ildə Bağlar Təsərrüfatının İnkişafı və İstismarı Birliyi tərəfindən verilmiş Mərdəkan qəsəbəsindəki bağın icarəyə verilməsi haqqında müqavilə itdiyi üçün etibarsız sayılır.

# Xarici hərbi xronika



## Amerika HHQ-si lazerli təyyarələrlə silahlanacaq

Amerika Hərbi Hava Qüvvələri yaxın gələcəkdə təyyarə və pilotsuzlarda quraşdırmaq üçün lazerli silah əldə etməyi planlaşdırır. Hazırlanacaq lazerli silahlar olduqca böyük gücə malik olmalıdır ki, düşmənin raket, pilotsuz uçan aparatlarını və təyyarələrini vurmaq mümkün olsun. Bu haqda HHQ-nin generalı Xok Karlayl bildirib. O qeyd edib ki, lazer silahlarını qırıcılarda quraşdırmaq üçün onlar daha kompakt olmalıdır. "HELLADS" adlı silah Darra şirkətinin sifarişi ilə "General Atomics Aeronautical" tərəfindən hazırlanır, gücü 150 kilovatdan çox olacaq. Silahlanmaya qəbul edilməzdən əvvəl onun səhra sınağı keçiriləcək. Sınaq zamanı raketləri, pilotsuzlara, yerüstü və hava nəqliyyat vasitələrini məhv etməklə vərdişləri nümayiş etdiriləcəkdir.

## "Bastion" raket kompleksinin əsas üstünlüyü

Müasir ordunun əsas zərbə qüvvələrindən biri də qanadlı raketlər sayılır. Bu silah "NPO Maşınqayırma" hərbi-sənaye korporasiyası tərəfindən istehsal olunur. Müəssisə bu günə qədər Rusiyanın məşhur "Bastion" raket kompleksini hazırlayıb. Rusiya Prezidenti Vladimir Putin bu silahı dünyada ən effektli silah kompleksi kimi xarakterizə edib.

"Oniks" silahının maksimal sürəti saniyədə 750 metr təşkil edir. Onun əsas üstünlüyü yüksək səs sürə-



tinə malik olmasıdır. Buna səbəb raketin müasir reaktiv mühərriklə təchiz edilməsidir. Belə mühərriklərdən perspektiv hipersəsli raketlərdə də istifadə ediləcək. Onun qoşun hissələrinə çatdırılması stəkan formalı nəqliyyat-buraxıcı qurğuda həyata keçirilir. Bu onun istismarını yüngülləşdirir və kənar təsirlərdən qoruyur. Bundan başqa "Oniks" müxtəlif qurğu və platformalarda, gəmilərdə, katerlərdə, sualtı qayıqlarda, təyyarələrdə və s. istifadə ediləcək.

"Oniks"in idarəetmə sistemi gəmilərin "elektron portretlərini" təşkil edir. Məhz buna görə raket hədəfi başqalarından seçə bilir, hansının yalançı hədəf olduğunu da dəqiqliklə ayırır.

O gəmi qrupları ilə informasiya mübadiləsini də həyata keçirir və düşmənə qarşı hücumu yerinə yetirir. Hücum raketlərlə eyni vaxtda aparılır.

**Hazırladı:**
**Svetlana YUSUBOVA,**
**"Azərbaycan Ordusu"**


| Məsul katib | Telefonlar | Ünvanımız | Növbətçi | Qəzetin hesabı | | |
|---|---|---|---|---|---|---|
| polkovnik-leytenant İlham BEHBUDOV | Baş redaktor: (012) 510-71-97 (faks); Baş redaktorun müavini: (012) 510-64-27; Məsul katib: (012) 510-71-98 Məktublar şöbəsi: (012) 510-64-28; | Bakı şəhəri, akademik Şəfaət Mehdiyev küçəsi 144, "Qızıl Şərq" hərbi şəhərciyi | mayor Vahid MƏHƏRRƏMOV | Nərimanov Rayon Xəzinədarlığı Kod: 200189 VÖEN: 1500428611 | Qəzet həftədə iki dəfə (III-VI günlər) nəşr olunur. "Azərbaycan Ordusu" qəzeti kompüter mərkəzində səhifələnərək "Hərbi nəşriyyat"ın mətbəəsində hazır diapozitivlərdən çap olunur. Əlyazmalara rəy verilmir, təqdim edilən yazılar müəllifə qaytarılmır. | Lisenziya № 361 Sifariş № 97 Nüsxə 4700 |